# BDU tələbələri üçün yeni yataqxanalar tikiləcək



**Bakı Dövlət Universitetinin yeni yataqxanalarının tikilməsi üzərində işlər aparılır.**

Bunu Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev jurnalistlərə açıqlamasında deyib.

Rektor qeyd edib ki, dövlət-özəl tərəfdaşlığı çərçivəsində müasir səviyyədə tələbə şəhərciyinin salınması layihəsi üzərində işlənilir.

"Orada nəinki BDU tələbələrini, hətta yaxınlıqdakı digər universitetlərin də tələbələrini təmin etmək imkanımız olacaq", - deyə rektor qeyd edib.



## Şuşa 2023-cu ildə TÜRKSOY-un mədəniyyət paytaxtı elan ediləcək

**Şuşa 2023-cu ildə TÜRKSOY-un mədəniyyət paytaxtı elan ediləcək.**

Bunu Mədəniyyət naziri Anar Kərimov "Böyük Qayıdış: Mədəniyyətin dirçəlişi" konfransında çıxışı zamanı deyib.

"Bu məlumat TÜRKSOY-un toplantısında elan olunacaqdı, amma mən prosesləri qabaqlamaq istədim. Bütün türkdilli qardaşlarımızın iştirakı ilə tədbirlər keçiriləcək",- deyə nazir qeyd edib.


№ 215 (5497), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 noyabr 2021-ci il (cümə axşamı)




# Türkiyə yardım göstərdi

## Suriyada düşərgədə saxlanılan 12 nəfər Azərbaycana gətirilib

**Noyabrın 4-də Suriya Ərəb Respublikasının Cerablus şəhərindəki Amerna düşərgəsində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan 12 nəfərin repatriasiyası həyata keçirilib.**

"Şərq" Xarici İşlər Nazirliyinə istinadən xəbər verir ki, qeyd olunan şəxslərin ölkəmizə gətirilməsi Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və əlaqələndirilmiş tədbirlər nəticəsində baş tutub.

Öncə vətənə repatriasiyası nəzərdə tutulan vətəndaşlarımızın yeri, şəxsiyyəti müəyyən edilib, daha sonra onların Türkiyə Respublikasının ərazisinə keçidi təmin olunub.

(səh.2)



## Ceyhun Bayramov Putinin xüsusi nümayəndəsi ilə görüşüb

**2021-ci ilin 24 noyabr tarixində nazir Ceyhun Bayramov və Rusiya Federasiyasının Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy arasında görüş baş tutub.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən xəbərə görə, görüşdə tərəflər Azərbaycan və Rusiya əməkdaşlıq gündəliyinin humanitar və mədəniyyət sahəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Gələn il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd ediləcəyi diqqətə alınaraq, bu xüsusda müvafiq tədbirlərin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin regional məsələlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## İsveç tarixində ilk dəfə qadın Baş nazir seçilib



**Maqdalena Andersson İsveç tarixində Baş nazir seçilən ilk qadın olub.**

Noyabr ayının 24-də İsveçin Sosial Demokratlar Partiyasının yeni rəhbəri Maqdalena Andersson Krallıq tarixində ilk qadın Baş nazir seçilib.

İsveç parlamentində baş tutan səsvermədə 349 deputatın 174-ü Maqdalena Anderssonun əleyhinə səs verib. Onun lehinə səs verənlərin sayı ümumi deputatların yarısından çox olduğu üçün o, Baş nazir seçilib.

Noyabrın 26-da Baş nazir yeni hökumətin tərkibini elan edəcək.

# Üçtərəfli razılaşmaların müddəaları diqqət mərkəzindədir

## Putin və Şarl Mişel Qarabağdakı vəziyyəti müzakirə ediblər



Kreml Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Soçi görüşündə müzakirə olunacaq məsələləri açıqlayıb

**Rusiya Prezidenti Vladimir Putin Avropa Şurasının sədri Şarl Mişel arasında telefon danışığı olub.**

APA-nın Moskva müxbirinin Kremlin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, telefon danışığı zamanı bir sıra aktual beynəlxalq problemlər müzakirə olunub.

"Vladimir Putin Şarl Mişelin xahişi ilə Dağlıq Qarabağ üzrə 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli razılaşmaların müddəalarının həyata keçirilməsi, o cümlədən dinc həyatın bərqərar edilməsi, iqtisadi münasibətlərin bərpası, Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılması istiqamətində atılan addımlar barədə məlumat verib.

Məhz bu məsələlərə Rusiya və Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin noyabrın 26-da Soçidə keçiriləcək görüşündə baxılması planlaşdırılır", deyə Kremlin məlumatında qeyd olunub.

Bundan başqa, Putin və Mişel telefon danışığı zamanı Ukrayna münaqişəsi və Belarus-Avropa İttifaqı sərhədində miqrant böhranını ətraflı müzakirə ediblər, Əfqanıstan və Liviya problemlərinə toxunublar.



## Növbəti ilin buraxılış və qəbul imtahanlarının cədvəli hazırdır

Qapanmalar olmasa, magistraturaya qəbul iki mərhələdə həyata keçiriləcək

**Növbəti il üçün buraxılış və qəbul imtahanlarının tarixləri ilə bağlı cədvəl artıq hazırdır.**

Bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, cədvəl Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edildikdən sonra ictimaiyyətə təqdim olunacaq.

(səh.3)

# Velosiped icad etməyə ehtiyac yoxdur

**Bakının dərdi bitmir. Sıxlıq, tıxac, gündən-günə daralan şəhər. Məsələ onda deyil ki, şəhərdə nəhəng tikintilər aparılır, hündürmərtəbəli binalar göbələk kimi artır. Şəhərin inkişafı bunlarla ölçülməməlidir.**

Bir şəhərdə ki sakinlər nə rahat hərəkət edə bilir, nə də rahat nəfəs alır, yollarda daim stres və əsəb keçirir, düz-əməlli səki də tapmır təhlükəsiz addım atmağa, o şəhər barəsində "inkişaf etmiş" kəlməsini işlətmək absurddur. Deyəcəklər, "bütün iri meqapolislər belədir, hamısında eyni problemlərdir". Xeyr, günahı meqapolisin üzərinə atmayaq. Səliqəli, infrastrukturun sakinlər, piyadalar, sürücülər üçün də əlverişli qurulduğu kifayət qədər böyük, məşhur şəhərlər var.

(səh.4)

**Universitetləri köçürməklə paytaxtı tıxacdan qurtarmaq mümkün deyil**



## Azərbaycanda 93 qadın hakim var

İki qadın icra başçısı, 8 nəfər isə universitet rektorudur



**Azərbaycanda 2021-ci ilin əvvəlinə dövlət qurumlarında qadın təmsilçilərin statistikası açıqlanıb.**

APA-nın məlumatına görə, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitəsinin (CEDAW) sədr müavini Elgün Səfərov "Dövlət qulluğunda gender bərabərliyi üzrə kurikulum" vəsaitinin təqdimat mərasimində deyib ki, ölkədə 93 qadın hakim var: "Yerli icra hakimiyyəti başçının müavinlərindən 72-si, nazir müavinlərindən 8-i, yerli icra başçılarından isə 2-si (Abşeron və Sədərək rayonunun icra başçıları) qadındır".

O, həmçinin 2020-2021-ci tədris ilinin əvvəlində qadın rektor və məktəb direktorlarının sayını açıqlayıb: "Azərbaycanda 8 qadın universitet rektoru, 15 qadın kollec, 9 qadın peşə təhsili, 1345 qadın isə ümumi təhsil müəssisələrinin direktorudur".

## Daha 23 nəfər ölüb

Azərbaycanda 1 924 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 924 yeni yoluxma faktı qeydə alınıb, 1 873 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 23 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 578 627 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 543 200 nəfər müalicə olunaraq sağalıb, 7 709 nəfər vəfat edib, aktiv xəstə sayı 27 718 nəfərdir.



## 8-9 aya dağların ətəyində asfalt yol salınıb

Polad Bülbüloğlu: "Atamın ev muzeyinin bərpasında fəhlələrə kömək edirdim"

(səh.2)



## Putinin təlimatçısı Bakıya gəlib

Elxan Şahinoğlu: "Overçuk dəhliz ifadəsini işlətmir"

(səh.4)

# Prezident İlham Əliyev Rusiya Federasiyasının Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.**

Söhbət zamanı ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu il ticarət dövriyyəsinin 7 faiz artdığı qeyd olundu. Rusiya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyi bildirilərək, Prezident İlham Əliyevin bu işdə dəstəyinin önəmi vurğulandı. Bildirildi ki, görüş keçirildiyi vaxtda eyni zamanda Azərbaycan-Rusiya işgüzar dairələri arasında da danışıqlar davam edir.

Görüşdə Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu məsələləri geniş müzakirə olundu. Əminlik ifadə edildi ki, Azərbaycan-Rusiya münasibətləri müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcək.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyəti və eləcə də gələcək planlar haqqında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı İlham Əliyev bu sahədə göstərdiyi səylərə görə Aleksey Overçuka təşəkkürünü bildirdi.

Görüşdə o da qeyd olundu ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının tezliklə açılması bölgədə sabitliyə və iqtisadi inkişafa öz töhfəsini verəcəkdir.

**"Mən çox xoşbəxtəm ki, bu günləri gördüm və özüm də iştirakçısı oldum. Atamın ev muzeyi bərpa edilərkən çox böyük həvəslə, səhərdən axşamadək fəhlələrin yanında oldum. Orada hər qurulan lap xırda daşı, məsələni də çox böyük həvəslə özüm həll edirdim, izləyirdim, kömək edirdim. Bu, mənim üçün çox xoş idi".**

Bu fikirləri Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu jurnalistlərə açıqlamasında bildirib.



# 8-9 aya dağların ətəyində asfalt yol salınıb

## Polad Bülbüloğlu: "Atamın ev muzeyinin bərpasında fəhlələrə kömək edirdim"

*O, müharibədən sonra quruculuq işlərinin çox böyük sürətlə getdiyini açıqlayıb:*

"Moskvada da mənə sual verirlər ki, "necə ola bilər ki, o boyda beynəlxalq hava limanı cəmi 8 aya tikilib?" Doğrudan da, bu, böyük möcüzədir.

Mən özüm avtomobil sürməyi çox sevirəm. Şuşaya özüm sükan arxasında gedib-gəlirəm. Bu yolun tikilməsi demək olar ki, gözümün qarşısında mərhələ-mərhələ həyata keçirilib, 8-9 aya dağların ətəyində asfalt yol salınıb. Bir var bunu televizayadan izləyəsən, bir də var ki, özün gözlərinlə görəsən, ayağınla gəzəsən. Çox böyük zövq alırsan ki, sənin dövlətin, sənin Prezidentin böyük işlər görür və bu işlər uğurla həyata keçirilir".



# Türkiyə yardım göstərdi

## Suriyada düşərgədə saxlanılan 12 nəfər Azərbaycana gətirilib

**Noyabrın 4-də Suriya Ərəb Respublikasının Cerablus şəhərindəki Amerna düşərgəsində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan 12 nəfərin repatriasiyası həyata keçirilib.**

"Şərq" Xarici İşlər Nazirliyinə istinadən xəbər verir ki, qeyd olunan şəxslərin ölkəmizə gətirilməsi Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və əlaqələndirilmiş tədbirlər nəticəsində baş tutub.

Öncə vətənə repatriasiyası nəzərdə tutulan vətəndaşlarımızın yeri, şəxsiyyəti müəyyən edilib, daha sonra onların Türkiyə Respublikasının ərazisinə keçidi təmin olunub.

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi tərəfindən ölkəyə qayıtması üçün vətəndaşlarımız "Azərbaycan Respublikasına qayıdış şəhadətnamə"ləri ilə təmin edilib və 24 noyabr tarixində qeyd olunan vətəndaşların Ankara-Bakı reysi ilə Azərbaycan Respublikasına repatriasiyası həyata keçirilib.

Azərbaycan Respublikasının hökuməti tərəfindən sözügedən şəxslərin reabilitasiyası və reinteqrasiyası üçün bütün lazımi tədbirlərin görülməsi nəzərdə tutulub.

Vətəndaşlarımızın repatriasiyası Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının birgə və əlaqələndirilmiş fəaliyyəti əsasında həyata keçirilib. Bu prosesin reallaşmasında Türkiyə Respublikası tərəfindən göstərilmiş yardım xüsusilə qeyd olunmalıdır.

Azərbaycan Respublikasının hökuməti öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirlərin görülməsini bundan sonra da davam etdirəcək.

# "Paşinyan əla siyasətçi olmasa da, əla fırıldaqçıdır"

## Turab Rzayev: "O, Zəngəzur dəhlizinin açılmasını yubatmağa çalışır"

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında noyabrın 26-sında Soçidə, 15 dekabrda isə Brüsseldə görüş keçiriləcək.**

Görüşə sayılı günlər qaldığı bir vaxtda, xalqın gözündən pərdə asmaq məqsədi ilə təşkil olunmuş mətbuat konfransında Paşinyan bir sıra açıqlamalar verib. O, Zəngəzur dəhlizinin açılması istiqamətində danışarkən bunu "Ermənistan ərazilərinə təcavüz kimi" göstərməyə çalışıb. Eyni zamanda Naxçıvana yolun hardan keçəcəyinə yalnız Ermənistanın qərar verə biləcəyini bəyan edib.



"Bu mövzuda Rusiyadan təzyiq görən kimi Qərbə, Azərbaycan tərəfdən sıxışdırıldıqda isə rəsmi Moskvaya doğru yönəlir"

Bu fikirlər Azərbaycan-Ermənistan-Rusiya arasında bağlanmış üçtərəfli sazişin müddəalarına ziddir. Maraqlıdır, mövcud durumda Ermənistan baş naziri belə çaşdırıcı açıqlamaları ilə rəsmi Bakı və beynəlxalq ictimaiyyətə hansı mesajı vermək istəyir?

**Mövzu ilə bağlı "Şərq"ə danışan politoloq Turab Rzayev Paşinyanın bu cür açıqlamasının manipulyasiya məqsədi daşıdığını deyib:** "O, beynəlxalq aləmə bildirmək istəyir ki, Ermənistan çətin vəziyyətdədir. Paşinyan yaxşı siyasətçi olmasa da, əla fırıldaqçıdır, ermənі ictimaiyyətini çox gözəl aldada bilir. Amma ortada məlum10 noyabr bəyannaməsi var. Sənədin bütün müddəalarını rəsmi İrəvan çox gözəl bilir. Paşinyan bu cür fikirlər səsləndirib bəyanatla Ermənistan tərəfin yerinə yetirilməli olduğu məsələləri, xüsusilə də Zəngəzur dəhlizinin açılmasını yubatmağa çalışır. Bu mövzuda Rusiyadan təzyiq görən kimi Qərbə, Azərbaycan tərəfdən sıxışdırıldıqda isə rəsmi Moskvaya doğru yönəlir. İkili oynamağı bacarır".

Politoloq Paşinyanın "Rusiyaya əgər sən məni sıxışdırıb Zəngəzur dəhlizinin açılması məsələsini gündəmə gətirərsənsə, o zaman mənim alternativim Qərb olacaq" mesajını vermək istəyində olduğunu bildirib: "Rusiya da bu ismarıcı alıb. 26 noyabr Soçi görüşünü də N.Paşinyana görə təşkil edib. Rəsmi Moskva yaxşı başa düşür ki, N.Paşinyan gedib birbaşa Brüsseldə görüşsə, mütləq bir səhv buraxacaq. Hətta Rusiya rəsmi İrəvanın orada hər hansısa bir sənədə imza atma məqamını da düşünüb".

**T.Rzayev mətbuat konfransında Ermənistan baş nazirinin 10 noyabr bəyannaməsinə görə Azərbaycan tərəfdən təzyiqlər gördüyünü bəyan etməsini diqqətə çatdırıb:** "Bu onu göstərir ki, rəsmi İrəvan yenə də öz şər-böhtan ampluasına davam edir. Bütün məsuliyyəti öz üstündən atmağa çalışır. Belə bir hal heç vaxt ola bilməz, çünki ortada üçtərəfli bir saziş var".

Politoloq bundan sonrakı mərhələdə də Ermənistan tərəfin hər bir halda danışıqlar masasına oturacağını söyləyib və əlavə edib ki, N.Paşinyanın belə çıxışları artıq absurd və yersizdir.

**Günəş Mərd**



# Problemlərin həlli daha çox bələdiyyələrin özlərindən asılıdır

## "Əgər bələdiyyə sədri icra başçısının əmrini müti şəkildə icra edirsə, demək "sonu çatmaq" üzrədir"

**"Bu gün bələdiyyələrin uğurlarla yanaşı ciddi problemlərlə də üz-üzə qalması hər kəs üçün danılmaz faktdır".**

Bu barədə bələdiyyə üzrə ekspert Vüqar Tofiqli deyib. Ekspert bildirib ki, problemlərin həlli daha çox bələdiyyələrin özlərindən asılıdır: "Birinci olaraq elə bələdiyyələrin özləri irəli düşüb mövcud problemlərin həllinə nail olmalı, heç olmasa, bu təşəbbüsdə olmalıdırlar. Yəni bələdiyyənin media orqanları ilə əməkdaşlıq əlaqələrinin qurulması, şəffaflıq prinsiplərinin qorunması, hesabatlılığın təmin edilməsi, sivil şəkildə fəaliyyətin təbliğ edilməsi önəmlidir. Problemlərin ictimailəşdirilməsi və ən əsası vətəndaş müraciətlərinin diqqətdə saxlanılması və məmnunluğunun təmin edilməsi hər bir bələdiyyə sədrinin əsas vəzifəsi olmalıdır. Bəs, bu gün bələdiyyə sədrləri buna riayət edirlərmi? Edirlərsə, hansı forma və məzmunda edirlər? Bax, elə əsas məsələ budur. Əgər bələdiyyə sədri icra başçısının qarşısında acizanə dayanır, müti şəkildə deyiləni edirsə, əksinə, sadə vətəndaşın müraciətinə, ən nəhayət, bizim zənglərimizə cavab vermirsə, demək, bələdiyyənin "sonu çatmaq" üzrədir. Deməli, problemləri həll edilməmiş qalacaq. Ayıb olsun belə sədrlərə. Növbəti dəfə belə sədrlərin adları bir-bir çəkiləcək və "səmərəli fəaliyyəti" barədə açıqlamalar veriləcək".

**İsmayıl**

# "Rüsumların bu qədər artırılması araşdırılmalıdır"

## Sabir Rüstəmxanlı: "Cəmiyyətin çox ciddi hissəsinin əsəbləri ilə oynayırıq"



**"Rüsumların 50-60 faiz artmasının ehtiyac meyarına, yaşayış minimumuna uyğun gəlib-gəlmədiyi, vətəndaşın bunu ödəməyə gücünün çatıb-çatmayacağı araşdırılmalıdır".**

**Bunu Milli Məclisin dünənki iclasında "Dövlət rüsumu haqqında" qanun layihəsinin müzakirəsi zamanı millət vəkili Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, rüsumların bu qədər artması araşdırılmalıdır:** "Rüsumlarda nə qədər artım var, biz nəyə səs veririk? Camaat bunu ödəyə biləcəkmi? Maşını saxlayıb gedirsən, axşam 60 manat cərimə gəlir. Bir ay ödəməsən, unutsan, 120-130 manat olur. Adı da olur ki, dəbbə faizi gəlib. Büdcə millətə verdiyinin neçə faizini cərimə və rüsumlarla geri qaytarır? Bu, müəyyən olunmalıdır. Cəmiyyətin çox ciddi hissəsinin əsəbləri ilə oynayırıq. Sanki bir məsuliyyət yoxdur. Bunun qarşılığında kimsə dilə gəlməlidir".

**Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə deyib ki, rüsumlarda 2-3 dəfə artım yoxdur:** "Bəzi rüsumlarda 20 faiz, bəzilərində 30-50 faiz artım var. Elələri var ki, teztez rast gəlinməyən rüsumlardır. Təbii ki, istənilən artım əhalinin cibinə təsir edir. Amma buna paralel olaraq, hökumət maaş və pensiyaların artımı ilə bağlı da qərarlar qəbul edir. Ümumiyyətlə, hər kəs qəbul etməlidir ki, cərimənin məbləği və fəlsəfəsi ödəyə bilmək üçün deyil. Cərimənin fəlsəfəsi qaydanı pozmamaq üçündür. Bütün dünyada cərimə o qədər sərt olur ki, insanlar bundan çəkinib qayda pozmasınlar. Dəbbə pulunun çox olmaması üçün bizim çalışmamız olacaq. Dəbbə pulunun çox olması ilə bağlı fikrə qatılıram".

**İsmayıl**

**Bu günlərdə Azərbaycan ərazisində yaşayan erməni icma nümayəndələrinin Fransaya səfər etməsi və onların "dövlət nümayəndələri" kimi qarşılanması beynəlxalq hüquqa və siyasi-diplomatik etikaya ziddir".**

Bu barədə millət vəkili Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, əslində, məsələ kimin özünü harada necə təqdim etməsi deyil, Fransa rəsmilərinin onları necə qəbul etməsidir: "Fransa bu qəbulu rəsmi status bir şey əldə edə bilmədi. Elə öz ölkəsinin rasional düşünməyi bacaran siyasətçiləri tərəfindən tənqidə məruz qaldı. Belə davranışlar nəticə etibarilə Azərbaycan-



# Paris səylərində səmimi və ardıcıl olmadı

## Fransa ənənəsinə sadiq qalaraq separatizmə dəstək nümayiş etdirən addımlar atır

səviyyəsində edərək bir daha qanun və hüquq pozuntusuna yol verib. Təəssüf ki, bu, birinci hal deyil. Bənzər hadisələr dəfələrlə baş verib. Azərbaycanın bu cür qanun pozuntuları ilə müraciətlərinə isə Fransa standart diplomatik açıqlama ilə cavab verir. Rəsmi Paris belə görüşlərin fərdi müstəvidə qiymətləndirilməsinin lazım olduğunu diqqətə çatdırır. Əlbəttə, bu izah qaneedici deyil və ola da bilməz. 44 günlük Vətən müharibəsi zamanı Fransa işğalçı Ermənistana dəstək verməklə hər şeydən əvvəl ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəfsizliyini itirdi. Sonra beynəlxalq hüquqazidd bəyanatları ilə özünün nüfuzuna xələl gətirən mövqe nümayiş etdirdi. Ancaq buna baxmayaraq, heç Fransa münasibətlərinə soyuqluq gətirdi. Ötən bir il ərzində Fransa öz xətalarını düzəltmək üçün bəzi cəhdlər göstərsə də, nə beynəlxalq ictimai rəydə, nə də Azərbaycanla münasibətlərdə ciddi bir məsafə qət edə bilmədi. Çünki səylərində ardıcıl və səmimi olmadı".

**H.Babaoğlunun sözlərinə görə, Fransa ənənəsinə sadiq qalaraq separatizmə dəstək nümayiş etdirən addımlar atdı:** "Fransa Xarici İşlər Nazirliyinin icazəsi olmadan heç bir rəsmi qurum, o cümlədən Fransa senatının üzvü özünü "nazir" kimi təqdim edən separatçı Ayk Xanumyanı qəbul edə bilməz. Yaxşı xatırlayırıq ki, Fransa senatının üzvü Retay hələ 2020-ci ildə qondarma rejimin tanınması ilə bağlı Fransa senatına qanun layihəsi təqdim etmişdi. İndi isə öz rəsmi tviter səhifəsində bu qeyri-qanuni görüşü paylaşmaqla informasiya manipulyasiyası edir. Bütün bunlar isə Azərbaycanın diqqətindən yayınmır. Hələ bir neçə il əvvəl Qarabağda yaradılmış qeyri-qanuni inzibati ərazi vahidləri ilə qardaşlaşma haqqında anlaşma imzalayan bəzi fransız bələdiyyələrinin qərarları elə Fransa məhkəmələri tərəfindən ləğv edilmiş, bunların Fransa qanunlarına və beynəlxalq hüquqazidd olduğu əsas götürülmüşdü. Bütün bunlara baxmayaraq, yenidən bənzər hərəkətlər etmək məqsədyönlü addım kimi qiymətləndirilə bilər".

**İsmayıl**



# Brüssel görüşü Kreml üçün risk olaraq qalır

## Məhz buna görə Soçidə imzaların atılacağı ehtimalı ön plandadır

İsmayıl Qocayev

**Məlum olduğu kimi noyabrın 26-da Soçidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək. Bu barədə Kreml rəsmən məlumat yayıb. Bildirilib ki, danışıqlar Rusiya dövlət başçısının təşəbbüsü ilə aparılacaq.**

Üç ölkə liderinin 10 noyabr və 11 yanvar tarixlərində imzalanmış üçtərəfli sazişlərin icrası, o cümlədən regionda sabitliyin möhkəmləndirilməsi və dinc həyatın bərqərar olması üçün gələcək addımların müəyyənləşdirilməsi yönündə müzakirələr aparacağı deyilir. Kremlin mətbuat xidmətinin məlumatına görə, ayrıca Putin-Əliyev və Putin-Paşinyan danışıqları da nəzərdə tutulub. Xatırladaq ki, üç ölkə liderinin mümkün görüşü hələ oktyabr ayında müzakirə edilmişdi. Rusiya prezidentinin sözçüsü Dmitri Peskov demişdi ki, ”belə bir razılaşma əldə olunarsa, Kreml bu barədə vaxtında məlumat verəcək”.

Onu da diqqətə çatdıraq ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyilə bu il dekabrın 15-də Brüsseldə Azərbaycan-Ermənistan rəhbərlərinin görüşü planlaşdırılıb. Həm Azərbaycan, həm də Ermənistan tərəfi həmin görüşə artıq rəsmən razılıq veriblər. Ekspertlərin fikrincə, Soçidə sərhədin delimitasiya və demarkasiyası üçün işçi qrupunun yaradılması barədə sənəd imzalana bilər. Sənəddə ərazi bütövlüyünün tanınması məsələsini də əks etdirən bəndin olması mümkündür. Həmçinin, kommunikasiyaların açılması ilə bağlı Qazax-İncivan və Ermənistan-Azərbaycan-İran yolunun açılması və Zəngəzur dəhlizi barədə bəzi irəliləyişlərin olması gözlənilir. Soçidəki görüşlə bağlı digər bir ehtimal Azərbaycan və Ermənistan arasında gələcəkdə imzalanacaq sülh müqaviləsi ilə bağlı müəyyən mesajların verilməsidir. Tərəflər arasında əsir-mina xəritəsi mübadiləsi haqqında da razılaşma əldə olunacağı da istisna edilmir.

**Soçi görüşü ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Rusiyanın Brüssel görüşünə qədər üçtərəfli təmas yaratmaq üçün əlindən gələni edəcəyi bəlli idi. Ekspertin fikrincə, Kremlin məqsədi kommunikasiya və sərhəd məsələsində ilkin razılaşmalarla Avropa İttifaqını ”ofsaytda” saxlamaqdır:** ”Böyük ehtimalla Putin və Paşinyan arasında telefon söhbəti Moskvanın təşəbbüsü ilə reallaşmışdı. Rusiya Ermənistanı masaya gətirmək üçün açıq təzyiq edirdi. Soçi görüşü ilə bağlı informasiyada diqqətçəkən məqam Rusiya mediasının ”Kremlin təsdiqi”nə istinadən yaymasıdır. Bu, İrəvanda görüşlə bağlı hələ də tərəddüdlərin olduğu və rusların ikinci dəfə səhv etmək istəməmələrindən qaynaqlanır. Peskov noyabrın ilk ongünlüyündə üçtərəfli görüşün olacağını açıqlamışdı. Paşinyanın təkzibindən sonra fikirlərinə korrektə etməyə məcbur oldu. İndi məlumatı Peskov yox, rus mediası Kremlə istinadən yayır. Ermənistan XİN-in dünən xəbəri təkzib etməsi də görüşə qədər proqramın dəyişə biləcəyi ehtimalını gücləndirir. İstisna deyil ki, Peskov tam dəqiqləşdiyi halda açıqlama verəcək. Görüşün əsas gündəliyi nədən ibarətdir? Əsas məqamlar kommunikasiyaların açılması ilə bağlı qrafikin təsdiqlənməsi, sərhədlərin delimitasiya və demarkasiyasına başlamaqla bağlı razılığın olmasıdır. Bu gözləntiləri gücləndirən məqamlar da var. Kreml Soçi görüşündə kommunikasiyanın bərpasına xüsusi diqqət ayrılacağını bildirir. Sərhəddə sonuncu döyüşlər delimitasiya-demarkasiyanın qaçılmaz olduğunu təsdiqlədi. Kommunikasiyanın bərpası üçün də sərhədin müəyyənləşdirilməsi prosesinə ehtiyac var. Paşinyanın müavini, üçtərəfli İşçi Qrupunun üzvü Mqer Qriqoryanın açıqlamaları da sərhəd və kommunikasiyanın bərpası müzakirələrində irəliləyişin olduğu fikrini ortaya çıxarır. Hərçənd, Qriqoryanın açıqlamaları prosesin yekunlaşmadığını deməyə əsas verir və bu, Soçi görüşündə ”sənədlər imzalana bilərmi” sualını aktuallaşdırır”.

> “Paşinyanın mərkəzdənqaçma meyilləri, Qərbin prosesə praktiki müdaxilə imkanlarının artması Rusiyanı məcbur edir ki, üçtərəfli bəyanatların icrasında irəliləyişə nail olsun”

**A.Nərimanlıya görə, ”9 noyabr görüşü” xüsusilə sərhəd məsələsindəki fikir ayrılığına görə baş tutmadı:** ”Rusiya rəsmilərinin ”razılaşmalar olan kimi görüş keçiriləcək” açıqlamaları müzakirələrin getdiyini deməyə əsas verirdi. Mümkündür ki, Rusiya görüşü məhz detalların razılaşdırılmasından sonra keçirmək niyyətində idi. Brüssel görüşünün gündəmə gəlməsi isə Moskvanı tələsməyə məcbur etdi. Bu baxımdan, Putinin hansısa sənəd imzalanmasa belə görüş keçirmək istəyi Qərblə yarışda önə çıxmaq gedişi kimi görünə bilər. Lakin Paşinyanın mərkəzdənqaçma meyilləri, Qərbin prosesə praktiki müdaxilə imkanlarının artması Rusiyanı məcbur edir ki, üçtərəfli bəyanatların icrasında irəliləyişə nail olsun. Ən optimal variant məhz kommunikasiyanın açılması qrafikinin təsdiq edilməsidir. Putinin ”Valday”da çıxışı zamanı verdiyi mesaj da sərhəd məsələsinin Qərbin müdaxiləsi üçün zəif nöqtə olduğunu təsdiqləyir. Məhz bunlara görə Soçi görüşündə imzaların atılacağı ehtimalı ön plandadır. Konkret sənədlər olmazsa, Brüssel görüşü ruslar üçün risk olaraq qalacaq”.

# Növbəti ilin buraxılış və qəbul imtahanlarının cədvəli hazırdır

## Qapanmalar olmasa, magistraturaya qəbul iki mərhələdə həyata keçiriləcək




**Növbəti il üçün buraxılış və qəbul imtahanlarının tarixləri ilə bağlı cədvəl artıq hazırdır. Bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, cədvəl Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edildikdən sonra ictimaiyyətə təqdim olunacaq.**

M.Abbaszadə qeyd edib ki, gələn il üçün magistratura səviyyəsinə sənəd qəbuluna yanvar ayından başlanılması nəzərdə tutulur: ”Lakin cədvəl təsdiqlənmədiyindən hələlik dəqiq tarix deyə bilmirəm. Qaydalara əsasən, magistraturaya qəbul adətən bir mərhələdə həyata keçirilir. Ötən il isə namizədlərə iki cəhd imkanı verdik. Əgər sərt karantin tədbirləri olmasa çalışacağıq ki, bu tədris ilində də belə bir imkan yaradaq”. DİM sədri deyib ki, magistraturaya sənəd qəbulu yəqin ki, yanvar ayından başlayacaq: ”Bütün imtahan cədvəlləri Operativ Qərargahla razılaşdırıldıqdan sonra sənəd qəbuluna başlanacaq. Cədvəli hazırlamışıq. Təsdiqlənəndən sonra sənəd qəbuluna başlayacağıq. Qaydalara əsasən, magistraturaya qəbul bir mərhələdə həyata keçirilir. Ötən il bakalavrlara iki cəhd imkanı verdik. Qapanmalar olmasa, bu il də belə bir imkan yaratmağa çalışacağıq”.

**M.Abbaszadə ”Dövlət qulluğunda gender bərabərliyi üzrə kurikulum” vəsaitinin təqdimat mərasimində deyib ki, gender problemi ilə əlaqədar ən yanlış fikir bunun yalnız qadınlara aid məsələ olması fikridir:** ”Bu, cəmiyyətin problemidir. Qadınların fəal iştirakı cəmiyyətdə əlavə dəyər yaranmasına, fəaliyyətlərin çeşidlənməsinə səbəb olur. Avropada iqtisadiyyatçılar iqtisadi artım tempini gender bərabərliyi ilə əlaqələndirir”.

Onun sözlərinə görə, son 15 ildə ali məktəblərə qəbulda texniki ixtisasları seçən qızların sayı kifayət qədər artıb: ”Peşə imkanları olmayanların çoxu erkən nikahın qurbanı olur, öz haqlarını müdafiə etmir, onlara qarşı kobud rəftara dözməli olurlar. Bəzi regionlarda 9-cu sinif buraxılış imtahanlarından sonra orta təhsildə qızların sayında kəskin azalma olur. Bu da erkən nikah və ya qızların təhsildən uzaq tutulması tendensiyalarından xəbər verir. Azərbaycanda dövlət qulluğu üzrə yardımçı vəzifələrə daha çox qadınlar işə götürülür”.

**O bildirib ki, bütün növ imtahanlarda qadınlar kişilərlə bərabər bilik və bacarıq səviyyəsi nümayiş etdirirlər:** ”Hətta bəzi qadınlar kişilərlə müqayisədə yüksək nəticə əldə edirlər. Noyabrın 23-də dövlət qulluğuna qəbulla bağlı keçirilən imtahanda iştirak edənlərin 55 faizi kişilərdisə, qalanı qadınlar olub. Sertifikat alanların 50 faizi isə qadınlardır. Qadınlar əsasən ehtiyat kadr kimi sistemə daxil olur. Hazırda inzibati rəhbər vəzifələrində çalışan dövlət qulluqçularının sayı 3 111 nəfərdirsə, onun 17,01 faizi qadınlardır. Amma yardımçı vəzifələrdə çalışanların statistikasına baxdıqda bu rəqəmin 44 faizinin qadınların payına düşdüyünü görürük”.

**Aynurə Pənahqızı**

# Gürcüstanın baş naziri səmimi danışmır

## Hamı bilir ki, Rusiya-Gürcüstan münasibətləri oliqarx İvanişvili tərəfindən tənzimlənir



**Gürcüstan müxalifətinin hökuməti tənqid və ittiham etdiyi əsas məqamlardan biri ”Gürcü Arzusu”nun Rusiyaya bağlılığı, Kremli qəzəbləndirəcək addımlar atmaqdan çəkinməsi ilə bağlıdır. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bu ittihamlara münasibət bildirib.**

Baş nazir deyib ki, Gürcüstanın Rusiya ilə siyasi məsələlər üzrə birbaşa əlaqələri yoxdur. Qaribaşviliyə görə, iki ölkə arasında yeganə təmas Abaşidze-Karasin formatı çərçivəsindədir: ”Bu format yalnız ticari-iqtisadi və mədəni münasibətləri əhatə edir. Rusiya Gürcüstanın suverenliyinə hörmət etmir və ərazilərimizin işğalını davam etdirir. Bu, bizim münasibətlərimizdə əsas maneədir”. Qaribaşvilinin qənaətincə, Rusiya ilə birbaşa dialoq böyük səylər tələb edir: ”Bu cür təmaslar nəticəyə hədəflənməlidir, görüş xətrinə görüş olmamalıdır. Hər hansı bir təmas və ya görüşün təşkili üçün yaxşı hazırlıq tələb olunur”. Baş nazir bildirib ki, hər bir normal dövlət öz milli maraqlarına uyğun hərəkət edir və etməlidir: ”Bizim əlbəttə ki, digər ölkələr, qonşularımız kimi öz maraqlarımız var. Buna görə də hesab edirəm ki, bu cür görüşlər üçün yaxşı hazırlıq lazımdır”. Xatırladaq ki, son günlərdə ”3+3” formatı geniş müzakirə olunmaqdadır. Artıq region ölkələri bununla bağlı öz mövqelərini ortaya qoyublar. Moskva Azərbaycan və Türkiyənin davamlı gündəmə daşıdığı ”altılıq” platformasına qarşı çıxmır. Lakin rəsmi Tbilisi ərazilərinin işğal faktını əsas gətirərək, Rusiyanın yer aldığı platformalarda təmsil olunmamaqda israrlıdır.

**Gürcüstan baş nazirinin açıqlamasını ”Şərq”ə dəyərləndirən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, Qafqazda problemlərin çözülməsi üçün Gürcüstanın təklif edilən 3+3 formatından imtina etməsi ilk növbədə bu ölkənin maraqlarına ziddir.** Analitikə görə, Qaribaşvili ”altılıq” adlanan əməkdaşlıq formatından imtinanı Rusiya ilə münasibətlərin gərgin olması ilə əsaslandırsa da, əslində həqiqət başqadır: ”Əvvəla, bu gün Rusiya-Gürcüstan münasibətləri oliqarx və hazırda de-fakto ölkənin bütün strukturlarına nəzarət edən İvanişvili tərəfindən tənzimlənir. İvanişvili isə Putinin yaxın və sadiq adamıdır. İndiki şəraitdə Gürcüstan Rusiyaya qarşı xarici siyasətini arxa bağça hesabına həyata keçirir. Hesab edirəm ki, bu məsələdə Gürcüstan səmimi deyil və Azərbaycandan müəyyən istəkləri var. Gürcüstanın ”altılıq” formatına qatılması əslində onun siyasi maraqlarına uyğundur. Bu addım torpaq bütünlüyünün gələcəkdə danışıqlar yolu ilə bərpasına da zəmin yaratmış olardı”.

**İsmayıl Qocayev**




# Bələdiyyə sənədinə heç bir etibar yoxdur

## Millət vəkilləri deyib ki, əgər bu institut formal qurum kimi qalacaqsa, ləğv edilməlidir

İsmayıl Qocayev

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası baş tutub. İclasın gündəliyinə 21 məsələ daxil edilib. Bir sıra deputatlar ”Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” qanun layihəsinə nəzərdə tutulan dəyişikliyə etiraz ediblər və qanun layihəsinin əleyhinə səs veriblər. ”Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” qanun layihəsinin müzakirəsi zamanı çıxış edən millət vəkili Fazil Mustafa bələdiyyələrin fəaliyyətsizliyinə də diqqət çəkib.**

F.Mustafanın sözlərinə görə, vaxtilə Konstitusiyaya düzəlişlər ediləndə bələdiyyələrin Milli Məclisə hesabat verməsi barədə müddəa əlavə edilib. Amma bir dəfə də olsun bir bələdiyyə Milli Məclisə hesabat verməyib: ”Ölü maddə kimi orda qalıb. Bir seçkili orqan digər seçkili orqana hesabat verə bilməz, bunu Konstitusiyadan çıxartmaq lazımdır”. Deputat bildirib ki, vətəndaşların bələdiyyə sənədinə etibarı yoxdur. ”Sənədi etibarsız olan bir yerli özünüidarə orqanına nə ehtiyac var?”. Məclis sədrinin birinci müavini Əli Hüseynli isə bildirib ki, Konstitusiya belə münasibəti qəbul etmir: ”Bu gün bələdiyyələrə nəzarəti həyata keçirən qurum mövcuddur. Bu qurum da hər il burada hesabat verir. Bu, hakimiyyət orqanları ilə səmərəli əməkdaşlığın bir formasıdır”. Məlumat üçün bildirək ki, qanun layihəsi yerli əhəmiyyətli tikinti materialları bələdiyyə vergilərinin vergitutma obyekti siyahısından çıxarılır. Yerli əhəmiyyətli tikinti materialları üzrə bələdiyyə büdcəsinə ödənilən mədən vergisi dövlət vergilərinə aid olunur.

> “Bələdiyyələrin üzərindən “torpaq satan” damğası götürülməlidir”

### “Bələdiyyələri formal qurum kimi saxlamaq nəyə lazım?

**Millət vəkili Razi Nurullayev də bildirib ki, əgər bələdiyyələr formal qurum kimi qalacaqsa, birdəfəlik ləğv edilsin:** ”Get-gedə yerli hakimiyyətlər daha çox mərkəzə tabe edilir. Vergilərin qalan hissəsi də mərkəzləşir. Bu tip idarəetmə sistemi ziyanlıdır. Elə bil sosialist əmək və idarəetmə sistemini yenidən bərpa edirik. Bələdiyyə dotasiya ilə yaşayar? Bizdə xeyli bələdiyyə var idi ki, özlərini saxlaya bilirdilər, indi onları da əlimizə baxmağa vadar edirik. Düzgün yanaşma deyil. Bələdiyyə institutunun gücləndirilməsi üçün çalışmalıydıq, biz əksini edirik. Bələdiyyələrin effektiv işləməsi üçün onların üzərindən ”torpaq satan” damğasını götürməli və üzərlərinə yerli inkişafa nail olmaq üçün ciddi məsuliyyət qoymalıyıq. Bunun üçün də onların yerli səviyyədə maliyyə imkanlarını genişləndirməliyik, daha kiçicik işıq gələn yeri da tutmalı deyilik. Əgər deyildiyi kimi, onlar vergini yığa bilmirdilərsə, mərkəzi hökumət gedib vergini yığsın, amma yığım həmin bələdiyyənin büdcəsinə verilsin”.

### “Nəyə görə bu insanlar nəzərdə tutulmur?”

**Milli Məclisin regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, vergi güzəştlərinə dair yeni qanun layihəsində ancaq İkinci Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri və qazilər nəzərdə tutulur:** ”Birinci Qarabağ müharibəsi ilə əlaqədar şəhid ailələri də bu məsələni qaldırır. Buna aydınlıq gətirilməlidir. Nəyə görə bu insanlar nəzərdə tutulmur? Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən eyni qaydada Birinci və İkinci Qarabağ müharibəsi şəhid ailələri, əlilləri, qazilərə sosial ödənişlər edilir, evlə, maşınla təmin olunurlar”. Deputat vergi güzəştlərinin Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə də şamil edilməsini istəyib.

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə deyib ki, yaxın gələcəkdə ehtiyac meyarı olmayacaq:** ”Bu məsələ gələcək hədəflərdən biridir. Ünvanlı sosial yardımı təyin etmək üçün yaşayış minimumundan istifadə edəcəyik”. Qeyd edək ki, gələn il üçün ehtiyac meyarının həddi 200 manat məbləğində müəyyənləşdirilib.

**Deputat Bəhruz Məhərrəmov dövlət hesabına hüquqi yardım üçün vəkillərə ödənilən məbləğin artırılmasını təklif edib:** ”Vəkilin vergi və ödəniş yükü çox ağırdır, ümumilikdə 34 faiz vergi və icbari ödəniş nəzərdə tutulur. Eyni zamanda vəkillərin pensiya təminatı ilə bağlı problemlər var. ”Əmək pensiyaları haqqında” qanunda prokurorluq, məhkəmə və s. orqanların pensiya təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlər nəzərdə tutulsa da, vəkilliyə münasibətdə, nədənsə, bu yanaşmanı görmürük. Digər problemi isə dövlət hesabına hüquqi yardım üçün vəkilə ödənilən məbləğlə bağlıdır. Əvvəl bu məbləğ 2 manat idi. Prezident böyük humanistlik göstərərək 22 fevral 2018-ci il tarixli sərəncamı ilə Nazirlər Kabinetinə bu məbləğin artırılmasını tapşırdı, hökumət də həmin ilin mayında bu vəsaiti 3 dəfə artırıb 6 manata çatdırdı. Artırılan məbləğə nəzər yetirsək, faktiki olaraq xərcləri çıxanda dövlət hesabına hüquqi yardım prosesində vəkil nəinki qazanmır, əksinə, bəzən əlavə xərclərin altında qalır. İndiki halda bu məbləğin azı 2 dəfə artırılması, habelə, dövlət hesabına yardımlar üzrə ödənilən vəsaitin vergi və ödənişlərdən azad edilməsi zərurətdir. Heç olmazsa, dövlət hesabına yardım üzrə məbləğ vergidən azad olunmalıdır”.

**Deputat həmçinin mediasiya ilə bağlı təkliflərini səsləndirib:** ”Bu təsisat hələ yeni formalaşır, bu mənada ilkin yardım və dəstəyin olması vacibdir. Bir müddət öncə Vəkillər Kollegiyası təsisata müəyyən yardım etdi. Hesab edirəm ki, hökumət yaxın 1, yaxud 2 il ərzində mediasiya strukturlarına yardım edib, təsisatı gücləndirməlidir. Habelə mediatorların güzəştli pensiya təminatı da diqqət yetirilməli vacib məsələlərdəndir”.

Parlamentin sədri Sahibə Qafarova bu məsələyə komitədə baxıla biləcəyini deyib.

# Paşinyan növbəti dəfə riyakarlığın zirvəsini aşdı

## Ermənistanın baş naziri Rusiyaya xoş gəlmək üçün bir neçə tezis səsləndirdi

**Ermənistan Baş naziri Nikol Paşinyan Soçi görüşü öncəsi onlayn formatda keçirdiyi mətbuat konfransında bir sıra məqamlara toxunub. Baş nazir əvvəlki görüş təkliflərindən hansı səbəblərə görə imtina etdiyindən və qarşıdakı görüşlərdə nələrin müzakirə oluna biləcəyindən danışıb. Paşinyan vurğulayıb ki, 9 noyabr Ermənistan üçün ağır gündür, çünki ötən ilin həmin günü Ermənistan kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qalıb. Baş nazirin sözlərinə görə, 9 noyabr görüşünə hansısa konkret, məsələn, "əsirlərin" qaytarılması qərarı olacağı halda qatıla biləcəyini bildirib:**

"Ancaq aydın oldu ki, belə bir qərarın qəbulu mümkün deyil. Onda mən görüşün 15 noyabra keçirilməsini xahiş etdim. Daha sonra görüşün 26 noyabra, əyani keçirilməsi təklif edildi və mən razılaşdım". Paşinyan bildirib ki, ilk dəfə olaraq Ermənistan və Azərbaycan müdafiə nazirləri arasında birbaşa əlaqə qurulacaq. Onun fikrincə, bu təşəbbüs tərəflərin qarşılıqlı olaraq atəşkəs rejiminin pozulmasında bir-birini ittiham etməsindən sonra ortaya çıxıb: "Mən Azərbaycan prezidentinin qərarını yüksək qiymətləndirirəm. Bunun nə qədər effektiv olduğunu zaman göstərəcək". Baş nazir bəyan edib ki, Azərbaycan və Ermənistan sərhədlərin demarkasiya və delimitasiyası yönündə komissiyanın yaradılması ilə bağlı sənəd imzalaya bilər: "Suallardan belə başa düşürəm ki, demarkasiya və delimitasiya sənədlərinin imzalanacağı ilə bağlı təəssürat yaranıb. Belə bir şey yoxdur. Yeganə sənəd o ola bilər ki, Azərbaycan və Ermənistan demarkasiya və delimitasiya ilə bağlı komissiyanın yaradılması üçün sənəd imzalasın". Paşinyan Zəngəzur dəhlizindən də söz açıb. Baş nazir iddia edib ki, Mehridən keçən kommunikasiyanın necə açılmasını yalnız Ermənistan həll edə bilər. O yenə bildirib ki, 10 noyabr bəyanatında "suveren dəhliz" formulu yoxdur: "Bəyanatın mətnində "dəhliz" sözü yalnız Laçınla bağlı işlədilib, hansı ki, rus sülhməramlılarının nəzarətindədir". Kommunikasiyaların açılmasına



Azərbaycanın şərtləri konkret və aydındır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, 10 noyabr və 11 yanvar bəyanatlarını icra etməli, sülh müqaviləsi imzalanmalıdır

gəlincə, Paşinyan deyib ki, 11 yanvar bəyanatına uyğun olaraq yaradılan işçi qrupu ölkələrin ərazi suverenliyi çərçivəsində, paritet əsaslarla istifadəsi ilə bağlı ümumi müzakirə aparır: "Başqa cür suverenlikdən necə danışmaq olar? Azərbaycan müəyyən edəcək ki, bizim ərazimizdən necə gəlib-keçəcək? Belə olmayacaq. Əgər biz hər şeyi güzəştə getmək və verməyə hazır olsaydıq, onda niyə bizə atəş açırdılar və hər tərəfdən bizə niyə aqressiya göstərirdilər ki?". Paşinyan deyib ki, İrəvan Qarabağla bağlı danışıqların Minsk qrupu formatında dirçəldilməsinə çalışır: "Beynəlxalq hüquq dilində danışmaq lazımdır".

Ermənistanın hökumət başçısı anklavlardan da danışıb. Deyib ki, Azərbaycan bu məsələni 10 noyabr 2020-ci il bəyanatının müzakirəsinə də salmaq istəyirdi: "Bizim mövqeyimiz belədir: başa düşməliyik ki, xəritələrdə əks olunan anklavların hansı əsası var? Bunun hüquqi əsası var, ya yox? Bu, xəritədə sadəcə bir konturdur, yoxsa belə deyək, iki kolxoz arasında digərinə ərazi verməkdir? Biz ciddi şəkildə bu fəaliyyətin hüquqi əsası olduğuna şübhə edirik". O bildirib ki, bu məsələyə demarkasiya və delimitasiya ilə bağlı yaradılması nəzərdə tutulan birgə komissiyada baxılmalıdır: "İrəvan bunların hüquqi əsaslarının anlaşılması üçün müzakirələrin əleyhinə deyil. Biz bilirik ki, dünyada anklavların ölkələrin sərhədləri içində qalması təcrübəsi var. Ancaq bundan əvvəl biz hüquqi əsasları anlamalıyıq".

**Paşinyanın məlum açıqlamaları ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Aqşin Kərimov Ermənistan Baş naziri Rusiyaya xoş gəlmək üçün bir neçə tezis səsləndirib.** Ekspertin sözlərinə görə, Paşinyan növbəti dəfə riyakarlığın zirvəsini adladığını nümayiş etdirib: "Paşinyanın siyasi-psixoloji portretinin cizgilərində riyakarlığa dair elementlər bütün mahiyyəti ilə göz önündədir. İndi onun Moskvaya ünvanlanan xoşməramlı müraciətləri də öz qaynağını həmin riyakarlıqdan götürür.

Söhbət ondan gedir ki, Paşinyan ölkəsinin Rusiyanın patronajlığı altında olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq niyyətində olmadığını bəyan edir. Halbuki, bundan əvvəl Paşinyan az qala KTMT-nin şantaj cəhdlərini ortaya qoyurdu. 2021-ci ilin may ayında Kəlbəcər, Laçın istiqamətlərində Ermənistanla sərhədin müəyyənləşdirilməsini hərbi müstəvidə başlayandan bir müddət sonra Paşinyan üzünü Qərbə tutdu. O təklif edirdi ki, sərhəddə ya KTMT, ya da NATO qüvvələri yerləşdirilsin. Bu, Ermənistanın üzvü olduğu KTMT-yə şantaj idi və Moskva bunun cəzasını müxtəlif zamanlarda verir. Noyabrın 16-da Ermənistan sərhədin Laçın, Kəlbəcər zonasında genişmiqyaslı hərbi təxribat törədib dərsini aldıqdan sonra yenidən Kremlə yalvarışqarışıq şantajını gündəmə gətirdi. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Rusiyanın və KTMT-nin məsələyə müdaxilə etməyəcəyi təqdirdə digər beynəlxalq tərəfdaşlara müraciət hüququnu özündə saxlaması barədə açıqlama ilə çıxış etməsi bunun bariz nümunəsi idi. Paşinyan bu ilin noyabrın 9-da Rusiyanın təşəbbüsü ilə keçiriləcək üçtərəfli görüşdən imtina etdiyini etiraf etdi. Amma məsələnin mahiyyətinə fərqli formada təqdimat verməyə çalışdı. Guya, görüşdə erməni hərbçilərin geri qaytarılmasına dair razılıq əldə olunmayacağına görə görüşün noyabrın 15-nə təxirə salınmasını təklif edib. Əslində isə Paşinyan bu periodda Rusiyanın orbitindəki qırmızı xətti keçərək Qərbə üz tutmuşdu. Yəqin ki, onun sərhəddə təxribata imza atmasının kökündə də hansısa vədin güdazına getməsi dayanır".

*A.Kərimov diqqətə çatdırıb ki, sərhəddəki toqquşmalar dayandıqdan sonra dekabrın 15-də liderlərin Brüsseldə görüşəcəyi açıqlandı. Bu onu göstərir ki, Paşinyan Rusiyadan xəbərsiz Avropa İttifaqı ilə sövdələşməyə getmişdi:* "Əslində bu sövdələşmə tarixi sərhəd insidentlərindən də əvvələ təsadüf edirdi. Moskva isə bunu başa düşür və İrəvanı cəzalandırır. İndi Nikol Paşinyanın üzünü Kremlə çevirməsinin səbəbləri aydınlaşır. Bu, çarələri tükənən İrəvan üzərində diktələrin edilməsinin göstəricisidir. Görünür ki, Paşinyan ölkəsinin KTMT-dən çıxmayacağını bəyan etməklə Soçi görüşündən dividendlərlə çıxmaq niyyətlərini ortaya qoyur. Amma anlamır ki, görüşün harada keçirilməsindən asılı olmayaraq, Prezident İlham Əliyevin şərtləri konkret və aydındır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, 10 noyabr və 11 yanvar bəyanatlarını icra etməli, sülh müqaviləsi imzalanmalıdır. Paşinyan bu cür təzyiqlərin altında inildəyərək "ya olum, ya ölüm" dilemması qarşısındadır. Bütün planları iflasa uğrayan Paşinyan üçün bu dilemmanın ortalığa çıxması labüd idi".

**İsmayıl Qocayev**



# Putinin təlimatçısı Bakıya gəlib

## Elxan Şahinoğlu: "Overçuk dəhliz ifadəsini işlətmir"



**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib. Danışıqlar zamanı ikitərəfli münasibətlərin, iqtisadi sahədə əməkdaşlığın inkişafından söz açılıb.**

Son dövrlərdə iki ölkə arasında ticarət dövriyyəsinin yeddi faiz artdığı bildirilib. Rusiya şirkətlərinin Azərbaycana böyük maraq göstərməsi və bu işdə Prezident İlham Əliyevin dəstəyinin önəmi vurğulanıb. Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu kimi məsələlər də müzakirə olunub.

Görüşdə Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının tezliklə açılması məsələsinə də toxunulub. Bu prosesin bölgədə sabitliyə və iqtisadi inkişafa töhfə verəcəyi bildirilib. Həmçinin söhbət ərəfəsində Rusiya-Azərbaycan-Ermənistan baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyəti və gələcək planlar haqqında fikir mübadiləsi aparılıb. Sonda Prezident İlham Əliyev bu sahədə göstərdiyi səylərə görə Aleksey Overçuka təşəkkür edib. Azərbaycan-Rusiya münasibətlərinin bundan sonra da uğurla inkişaf etdiriləcəyi diqqətə çatdırılıb.

*Maraqlıdır, belə həssas məqamda bu görüşün nə kimi əhəmiyyəti var?*

**Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Şərq"ə danışıb. O, Krem sahibinin Rusiya baş nazirinin müavini Aleksey Overçuku Bakıya göndərməsinin məqsədini açıqlayıb:**

"Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə iki gündən sonra Soçidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüşdə nələrin müzakirə ediləcəyi bəllidir. Əsas mövzu Zəngəzur dəhlizi və ya kommunikasiya xətlərinin açılması, o cümlədən sərhədlərin müəyyənləşməsiylə bağlı üçtərəfli komissiyanın yaradılmasıdır. Məhz bu məqsədlə A.Overçuk Bakıya göndərilib. Overçuk Rusiya-Azərbaycan-Ermənistan üçətərəfli komissiyasında ölkəsini təmsil edir".

*Politoloq görüşdə Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki fəaliyyətinə xüsusi diqqət yetirildiyini vurğulayıb və Overçukun fəaliyyətində bir sıra məqamlara toxunub:* "A.Overçuk il ərzində iki dəfə İrəvana gedib. Onun Bakıda və İrəvanda müzakirə etdiyi əsas mövzu regional kommunikasiya xətlərinin açılması olub. A.Overçuk dəhliz ifadəsini işlətmir. O, son açıqlamasında erməni rəsmiləri kimi belə bir fikir səsləndirib: "Bütün kommunikasiya xətləri ölkələrin ərazi bütövlüyünə hörmət edilərək çəkilməlidir". Overçuk dəhliz əvəzinə "kommunikasiya xətləri" ifadəsini işlədib. Beləliklə, o, Ermənistanın Zəngəzurdan keçən dəmiryoluna, eləcə də avtomobil yoluna nəzarət etməsinə işarə edib. Bu, onun prosesdə Rusiya prezidentinin təlimatını yerinə yetirdiyini göstərir".

E.Şahinoğlu sonda Ermənistanın Kremlin dəstəyi ilə Zəngəzur dəhlizindən keçəcək nəqliyyat yollarına nəzarət etmək istəyəcəyi təqdirdə, bizim də Moskva qarşısında Laçın dəhlizinin Azərbaycan sərhədçiləri və gömrük xidməti tərəfindən nəzarətə götürülməsi məsələsini qaldırmalı olduğumuzu bildirib: "Və bu da bizim təbii haqqımızdır".

**Günəş Mərd**

# Velosiped icad etməyə ehtiyac yoxdur

## Universitetləri köçürməklə paytaxtı tıxacdan qurtarmaq mümkün deyil

**Bakının dərdi bitmir. Sıxlıq, tıxac, gündən-günə daralan şəhər. Məsələ onda deyil ki, şəhərdə nəhəng tikintilər aparılır, hündürmərtəbəli binalar göbələk kimi artır. Şəhərin inkişafı bunlarla ölçülməməlidir.**

Bir şəhərdə ki sakinlər nə rahat hərəkət edə bilir, nə də rahat nəfəs alır, yollarda daim stres və əsəb keçirir, düz-əməlli səki də tapmır təhlükəsiz addım atmağa, o şəhər barəsində "inkişaf etmiş" kəlməsini işlətmək absurddur. Deyəcəklər, "bütün iri meqapolislər belədir, hamısında eyni problemlərdir". Xeyr, günahı meqapolisin üzərinə atmayaq. Səliqəli, infrastrukturun sakinlər, piyadalar, sürücülər üçün də əlverişli qurulduğu kifayət qədər böyük, məşhur şəhərlər var. Hansı ki, bu şəhərlərin əhalisi Bakıdan qat-qat artıqdır. Amma Bakının dərdinə çarə tapılmır, problemlər həllini tapmır. Millət vəkili Fazil Mustafa Milli Məclisin toplantısında Bakının sıxlıq problemini yenə gündəmə gətirdi və uzun illərdir səsləndirilən təklifi yenə irəli sürdü:

"Biz hamımız Böyük Qayıdışı gözləyirik, amma cəmiyyətdə bir sual dolanır ki, Gədəbəyə, Lerikə kiçik qayıdış nə vaxt olacaq? Bu gün regionlarda bəzi kəndlər boşalır, amma biz Qarabağda bir kəndə 20-30 min məcburi köçkünün qaytarılmasından danışırıq. Rayonları birləşdirməli, idarəetməni sadələşdirməliyik. Bakını tıxacdan, gərginlikdən xilas etməliyik. Bir sıra nazirlikləri rayonlara köçürməliyik. Eyni zamanda bəzi universitetləri də Bakıdan çıxartmalıyıq".

**Millət vəkilinin çıxışında ifadə etdiyi fikirlər "Transport for Baku" internet səhifəsində müzakirə olunub. Səhifədə yerləşdirilmiş yazıda belə fikirlər var:**
"Təəsüf ki, bu, cəmiyyətdə ən yayılmış yanlış və heç elmi əsası olmayan, zərərli bir mifdir. Universitetlər Bakıdan çıxarılsa, guya paytaxt küçələrində sıxlıq azalacaq?

- İlk olaraq universitetlər, əhali üçün əlçatan yerlərdə olmalıdır ki, gediş-gəliş rahat olsun;
- Tutaq ki, universitetlər köçürüldü, bəs onların indiki binaları necə olacaq? Boş qalacaq? Boş qalmayacaqsa, onlar yenə gediş-gəliş ehtiyacı yaradacaq.
- Universitetlərlə işləyən adamlar bölgələrə köçmək istəyəcəkmi? İstəməsələr, zorla aparılacaq?

Bakıda ictimai nəqliyyat sahəsində problem varsa, bu problemi universitet köçürülməsi ilə həll etmək olmaz. Köçürülməyə xərclənəcək vəsaitin bir hissəsi ictimai nəqliyyat infrastrukturuna, onun maliyyələşməsinə, planlaşdırmanın keyfiyyətinə yönəlsə, bu, şəhərə daha yaxşı olar. İri şəhərlərin mərkəzi hissəsində yerləşən universitetlərin şəhərə ziyanı yoxdur, ancaq faydaları var, bu, şəhər iqtisadiyyatını canlandırır. Məsələn, London şəhərinə fikir verin və baxın, onun mərkəzi hissəsində nə qədər universitet binası var, özü də bunlar dünyanın ən qabaqcıl universitetləridir, on minlərlə tələbəsi və akademik heyəti var. Bir sözlə, bizdə insanlar nəqliyyat problemlərinin həllinə tamamilə səhv bucaqdan baxır. Bəziləri də populyasiya arzusundadır, bəziləri təhsil ocaqlarını köçürmək istəyir, bəziləri nazirlikləri. Amma çox az adam nəqliyyat/mobillik sisteminin təkmilləşdirilməsi haqqında danışır. Bakıdan çox daha sıx, yolları orta əsrlərdən qalmış olduqca uğurlu dünya şəhərləri var. Lakin onların mükəmməl, vahid orqanizm kimi işləyən ictimai nəqliyyatı, avtomobil istifadəsinin idarəetmə sistemi, piyada və velosipedlə hərəkət etmək üçün əlverişli şəraiti var".



*"Bakıdan çox daha sıx, yolları orta əsrlərdən qalmış olduqca uğurlu dünya şəhərləri var. Lakin onların mükəmməl, vahid orqanizm kimi işləyən ictimai nəqliyyatı, avtomobil istifadəsinin idarəetmə sistemi, piyada və velosipedlə hərəkət etmək üçün əlverişli şəraiti var"*

"İnsan yönümlü şəhərlər" adlı internet səhifəsində isə Anar Əliyev "Avtomobilləşmə şəhəri necə məhv edir" başlığı ilə fikirlərini bölüşüb. A.Əliyev yazır ki, 1938-ci ildən başlayaraq Amerikanın Oklend şəhərində yaşayış massivlərini söküb yerində böyük magistrallar tikməyə başlamışdılar: "Belə proseslər Amerikanın əksər iri şəhərlərində baş verib. Yollar şəhəri sözün əsl mənasında parçalayıb, sanki bura nüvə bombası düşüb". Oklend şəhərinin peykdən çəkilmiş fotosu da paylaşılıb və orada şəhərin illər ərzində necə dəyişdiyi görünür.

**Nəqliyyat eksperti Rauf Ağamirzəyev isə "Şərq"ə açıqlamasında qeyd etdi ki, tıxaclardan azad olmaq üçün çeşidli ictimai nəqliyyat inkişaf etdirilməli və onlar arasında rahat keçidlər təmin edilməlidir:**

- Burada yeni velosiped icad etməyə gərək yoxdur. Regional şəhərlər inkişaf etdirilməlidir, bu, birmənalıdır. Amma Bakının mobilliyinin təmin edilməsinə bu mane olmamalıdır.

*Xatırladaq ki, "Şərq"ə açıqlamalarının birində iqtisadçı Natiq Cəfərli "indiyədək nə tikilib, tikilib, onları sökməyəcəklər. Heç olmasa bundan sonra xaotik, şəhərin memarlıq üslubuna zidd, sıxlıq yaradan, şəhəri çökdürən tikililərə icazə verilməməlidir", söyləmişdi.* Amma şəhər sakinləri bunun tam əksini müşahidə etməkdədir. Paytaxtda səki anlayışı az qala sıfırın altına enib. Səkilər zəbt edilmiş vəziyyətdədir. Gah avtomobillər, gah ofislər, gah binalar, yaxud da artırmalar, əlavə konstruksiyalarla. Binaların alt mərtəbələrində ofis açanlar giriş hissəni genişləndirib küçəyə, avtomobil yoluna qədər uzadır. Digəri pilləkən çıxarır. Binaların sağ-solları əlavə tikililər, artırmalarla doludur, yaşayış binaları arasında, ya da qarşısında keçid üçün nəzərdə tutulan "boş" ərazilər ofislər tərəfindən zəbt edilib. Ən dəhşətlisi isə budur ki, bu dalğa dayanmır, bitmir. Sürəkli və sürətli bir şəkildə davam edir. Belə vəziyyətdə Bakını sıxlıqdan xilas etmək mümkün deyil. Şəhərsalma və Arxitektura Komitəsi hara, hansı tərəfə baxır görəsən? Bəs Bakı Şəhər İcra Hakimiyyəti? Məsələn, Gömrük Komitəsinin yanında şüşədən ucaldılan əndrəbadi tikilini niyə görmürlər? Onun da icazəsi ötən əsrdə alınıb?! Rəsmilər hər şeyi ötən əsrin üzərinə yıxmağa meyillidir axı! Tutalım, kimsə, hansısa rüşvətxor, korrupsioner, şəhərin tarixini, memarlığını vecinə almayan birisi sərəncama imza atıb, tikintiyə icazə verib. Sərəncamı ləğv etmək yəni bu qədər çətindir, yoxsa mümkünsüzdür? Mümkünsüz bir şey yoxdur. Sadəcə, məmurlar vicdanlı olmalıdır. Dövlət və xalq maraqlarını güdməlidirlər, şəxsi maraqlarını deyil.

**Məlahət Rzayeva**

# "Ermənilər Zəngəzurla bağlı Rusiya arxivlərinə baxsınlar"

## Boran Əzizli: "Paşinyanın Zəngəzurla əlaqəli dediklərinin heç bir elmi əsası yoxdur"



**Ötən gün Ermənistan Baş naziri Nikol Paşinyan mətbuat konfransında bir sıra açıqlamalar verib. O, müsahibə zamanı Zəngəzurun tarixi ilə bağlı irəli sürdüyü iddialarında qeyd edib ki, Zəngəzur dəhlizi və ya Şərqi Zəngəzur kimi terminləri Azərbaycan tərəfi uydurur və Ermənistana qarşı bununla ərazi iddiaları irəli sürür.**

Əlbəttə, N.Paşinyanın sərsəm açıqlaması növbəti erməni yalanı və saxtakarlığıdır. Baxın, dünyada Şimali Makedoniya, Cənubi Tirol, Qərbi Saxara, Şərqi Timor, Mərkəzi Afrika Respublikası kimi tarixi-coğrafi adlar var. Heç kim onların mənşəyini, mövcudluğunu şübhə altına qoymur. Həmçinin Azərbaycanda da coğrafi-tarixi adların əsasları mövcuddur. Əgər bu ərazinin adı Zəngəzurdursa, onu nəyə görə başqa adla adlandırmalıyıq? Zəngəzur Azərbaycanın tarixi torpağıdır. Onun Şərqi də, Qərbi də Azərbaycana məxsusdur, bizimdir.

**Bununla bağlı "Şərq" danışan tarixçi-alim Boran Əzizli bildirib ki, Paşinyan yenidən erməni xislətinə uyğun olaraq tarixi təhrif edir:** "Hələ qədim və orta əsr mənbələrinə müraciət etmirəm. Elə rus mənbələrinin özündə istər məsələn, 1886,1897, 1916-cı illər Rusiya dövlətinin apardığı siyahıyaalmaların nəticələrinə, istərsə də çap olunan xəritələrdə həmin ərazinin necə adlanmasına baxsın. Şübhəsiz ki, baxıb, bilir. Amma etiraf etmək istəmir və bu da onun tarixi saxtalaşdırmasından irəli gəlir. Zəngəzur sözünün özü də qədim türk tayfası olan Zəngilərin adından götürülməsi ilə bağlı alimlərin əsərlərində çoxlu faktlar var. Eyni zamanda qədim dövrdə bu ərazi əvvəllər Atropatena, sonrakı illərdə Sacilər tayfasının rəhbərlik etdiyi Sacilər Azərbaycan dövləti, daha sonrakı illərdə Səlcuqlar, Şəmsəddin Eldənizin rəhbəri olduğu Azərbaycan Atabəylər dövləti və Qaraqoyunlu tayfa ittifaqının Baharlı tayfasının tərkibinə daxil olub.

Sonrakı illərdə də Bayandurların başçılığı altındakı Ağqoyunlu, ardınca Səfəvilər dövlətinin bir hissəsi idi. Gəncə-Qarabağ bəylərbəyliyinin bir hissəsi isə həmin dövrdə Çuxursəd bəylərbəyliyinin ərazisi kimi tanınırdı.

*B.Əzizli həmçinin əlavə edib ki, sonrakı xanlıqlar dövründə də bu ərazi Qarabağ xanlığının, az bir qismi isə İrəvan xanlığının ərazisinə daxil olub:* "Ona görə də sonrakı illərdə Rusiya sənədlərində məhz Azərbaycan torpaqları kimi 1828-ci ildə Türkmənçay müqaviləsində işğal edildiyi bildirilib. Həmin ildə bağlanan 10 müqavilədə göstərilən sərhədlər də tarixə dəqiq məlumdur. Orada Zəngəzur məhz xalqımıza məxsus olan ərazi kimi göstərilib. Əhalisi də azərbaycanlılardan ibarət idi. Oradakı toponimlərin də böyük əksəriyyəti xalqımıza xasdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra məlumdur ki, ermənilər Azərbaycan torpaqları olan İrəvan, Naxçıvan, Qarabağ, o cümlədən Zəngəzur torpaqlarına köçürülüb, yerləşdirilib. Ona görə də Paşinyanın Zəngəzurun tarixi ilə bağlı dedikləri sözün həqiqi mənasında ictimaiyyəti aldatmaq məqsədi daşıyır. Amma arxalarında həmişə çar və bolşevik Rusiyası dayandığına görə çox ərköyün öyrəniblər. İndi isə tarixi gerçəkliyi bərpa edəndə və buranın əsl sahibləri addım-addım həmin yerlərə qayıdanda ermənilər buna dözə bilmirlər.

Zəngəzur və İrəvan quberniyası ərazisində 382 şiə, 9 sünni məscidi fəaliyyət göstərib. Onlardan yalnız biri İrəvandakı Göy məscid qalıb. İndi özünü guya mədəni abidələrin hamisi kimi qələmə vermək istəyən Fransa bir dəfə soruşmur ki, buradakı yaşayış məntəqələrində olan məscidlər hanı? Yaxud da orada çoxlu sayda azərbaycanlılar olub. Bunların birinin də olsun, qəbri qalmayıb. Bəs, bu azərbaycanlıların yaşadığı yaşayış məntəqələrindəki qəbiristanlıqlar hanı? Yerlə bir olub".

Tarixçi diqqətə çatdırıb ki,1920-ci ildən Yuxarı, yaxud da Qərbi Zəngəzurun Ermənistana verilməsi ilə bağlı Rusiyanın arxiv sənədlərində kifayət qədər çoxlu faktlar var: "Bolşeviklər tərəfindən ermənilərə verilib və nəticədə Azərbaycan həm Naxçıvan, həm də Türkiyədən demək olar ki, ayrı salınıb. Xəritəyə baxanda da ilk baxışdan Naxçıvan anklav kimi görünür. Halbuki, Yuxarı Zəngəzur işğal edildikdən sonra Azərbaycanın quru yolla əlaqəsi tamamilə kəsilib və o dövrdə bolşeviklər bilərəkdən olduqca böyük və məkrli siyasət yeridərək Zəngəzuru işğal edib, Ermənistana veriblər. Hətta 1921-ci ildə Azərbaycan SSRİ torpaq komissarlığının verdiyi məlumata görə, 405 min desyatin torpaq, yəni 4,4 min kvadrat kilometr ərazi ermənilərə verilib və beləliklə də Zəngəzurun yuxarı hissəsi ermənilərin əlinə keçib. Yalnız Nüvədi kəndi qalmışdır. 80-ci illərin sonunda ermənilər o kəndi də işğal ediblər və azərbaycanlılar oradan qovulub. Həmin ildə Yuxarı Zəngəzur Ermənistana birləşəndən sonra onlar yeni 9-cu qəzanı da bura əlavə ediblər. Həmin zamana qədər 8 qəza var idi. 30-cu illərdə rayonlaşma gedəndə Zəngəzur qəzası ifadəsi ləğv olunub, əvəzinə 4 əsas qəza yaradılıb: Qafan, Mehri, Sisyan, Gorus".

**Alim vurğulayıb ki, Paşinyanın Zəngəzurla əlaqəli dediklərinin heç bir elmi əsası yoxdur:** "Bu, xalqı aldatmaqdır. Ona görə də hesab edirəm ki, Paşinyanın açıqlamasında dediklərinin yalan olduğunu səbir və təmkinlə nəinki Azərbaycan xalqına, o cümlədən xarici dillərdə də ictimaiyyətə izah etməliyik".

**Sücayət Mehti**

# Soçi görüşündən sonra Ermənistanda yenə mitinqlər keçiriləcək

## Paşinyanın son çıxışı kütləni müəyyən qədər sakitləşdirməyə hesablanıb

**Ermənistanda "5165" hərəkatının tərəfdarları yenidən etiraz aksiyasına başlayıblar. Onlar İrəvanda bir neçə metro stansiyasına girişi əngəlləyiblər.**



Parlamentdənkənar qüvvələrin təmsil olunduğu hərəkat hər kəsi saat 18:30-da Respublika meydanına toplaşmağa çağırıb. Aksiyaya etiraz edənlər də olub. Sərnişinlər bildiriblər ki, bütün bunlar onlar üçün xoşagəlməz vəziyyət yaradır.

Polis artıq aksiya iştirakçılarını saxlamağa cəhd edib. "5165" hərəkatı noyabrın 22-dən İrəvanda etiraz aksiyaları keçirir. Onlar Ermənistanın Baş naziri Nikol Paşinyandan Azərbaycanla sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı sənədin məzmununu ictimaiyyətə açıqlamasını tələb edirlər.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Elman Vəliyev belə bir mitinqin olmasının gözlənildiyini deyib. Politoloq qeyd edib ki, fürsətdən istifadə edən Paşinyan əleyhdarları daha da aktivləşdilər:** "Azərbaycan tərəfi ilə Soçidə görüşün keçirilməsinin planlaşdırılması və bu görüşdə delimitasiya və demarkasiyası məsələsi barədə müsbət müzakirələrin aparılacağı xəbəri xalqda etiraz dalğası yaratdı. Əslində bunu xalq deyil, iğtişaş salmaq istəyən qruplar etdi. Ermənistan üçün ən optimal variant Azərbaycanla uzlaşmasıdır. Xalq onsuz da bilir ki, Ermənistan məğlub oldu və Qarabağ sahibinə qovuşdu. Yaxşı bilirlər ki, razılığa getməsə belə Ermənistan dirçələn deyil, amma Paşinyan ən doğru seçimi edir".

**Politoloq qeyd edib ki, Soçi görüşündə və ondan sonra Ermənistanda yenə də etiraz aksiyaları davam edəcək:** "Çünki həmin görüşdə iki tərəf kompramisə getməyə çalışacaq. Paşinyanın dünənki çıxışı isə kütləni müəyyən qədər sakitləşdirmək üçün önəmli idi. Paşinyan öz hakimiyyətindən ehtiyat etdiyi üçün çox məqamı aşkar eləmir. Paşinyan bilirdi ki, ona qarşı etirazlar olacaq, lakin ixtiyar Paşinyanda deyil. Paşinyan əmir quludur, yuxarıdan nə deyirlərsə, o da olmalıdır. Kreml nə tələb edirsə, Paşinyan etməyə məcburdur. Əsas məsələ bundan sonra Paşinyan kreslonu saxlaya biləcəkmi? Zənn etmirəm ki, Paşinyan tez hakimiyyətdən devrilsin. Soçi görüşü kompromis əsasında olacaq. Yəni Ermənistana da güzəştlər ediləcək, Ermənistan blokadadan çıxa bilər".

**Aynurə Pənahqızı**



# Paşinyan Soçini yox, Brüsseli seçir

## Qabil Hüseynli: "Soçi görüşü baş tutmadığı təqdirdə Qərblə Rusiya arasında həlledici sınaqlar başlayacaq"

**Son zamanlar Ermənistanda anti-rus mövqeyi güclənib. Müharibədən sonra Rusiyanı ittiham edən, sonradan isə yenə Moskvaya, Vladimir Putinə sığınan ermənilərin dərdi yadlarına düşüb. Hələ noyabrın 7-də Kreml sözçüsü Dmitri Peskov videkonfrans formasında üçtərəfli görüşün baş tutacağının anonsunu versə də, bu görüş reallaşmadı. Noyabrın 9-da Moskvada Azərbaycan və Ermənistan arasında iki yeni sənədin imzalanması gözlənilirdi: sərhədlərin demarkasiyası, delimitasiyası və sülh müqaviləsinin imzalanması.**

Ermənistan görüşə bir gün qalmış hər hansı səbəb göstərmədən tədbirə qatılmaqdan imtina etdi. Paşinyan görüşdən imtina etməklə Rusiyaya hörmətsizliyini növbəti dəfə nümayiş etdirdi. Bunun ardınca Paşinyan üçtərəfli görüşün Brüsseldə keçirilməsi üçün Avropa İttifaqına müraciət edib. Nəticə etibarilə, Rusiyanı çıxılmaz və pərt durumda qoyub. Rusiya və Azərbaycan liderləri Vladimir Putin, İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın 26 noyabrda Soçidə üçtərəfli görüşün keçiriləcəyi barədə xəbər yayılıb. Lakin Ermənistan Soçidə üçtərəfli görüşün keçirilməsini istəmir. Bu günlərdə isə əsas müzakirə mövzusu dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə sammiti çərçivəsində Azərbaycan və Ermənistan başçılarının görüşüylə bağlıdır.

Maraqlısı odur ki, Baş nazir N.Paşinyan Moskva görüşünə "yox", Brüssel görüşünə isə "hə" deyib. Rusiyalı ekspertlər isə bunu N.Paşinyanın Rusiya deyil, Qərb orbitində yer alması kimi xarakterizə edir. Şübhəsiz ki, bu da rəsmi İrəvanla rəsmi Moskva arasındakı çatları daha da dərinləşdirir.

Qeyd edək ki, Ermənistanın "Hrapark" qəzeti yazır ki, Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının komandiri Aleksandr Petrov bu günlərdə şəxsi söhbət əsnasında şikayət edib. Bildirib ki, Ermənistanın müdafiə naziri Karapetyan ilə görüşəndən 4 gün sonra onu işdən qovublar: "Ya mənə nifrət edirlər, ya da çox mürəkkəb proseslər gedir, heç nə başa düşmürəm. Biz Ermənistanın təhlükəsizliyini təmin etmək üçün böyük bazayıq, amma bizdən uzaqlaşırlar və bizimlə əlaqə qurmaq istəmirlər. Yaxşı, dialoqdan yayınırsınız, öz işinizdir. Buna baxmayaraq, Ermənistana dəstək əlaməti olaraq bu günlərdə İrəvan səmasında aviaşou təşkil etdik, xüsusi olaraq Müdafiə naziri Suren Papikyanı dəvət etdik, amma o, gəlmədi və hətta idarəsindən adam da göndərmədi. Bu nədir, müttəfiqlərimiz bizə nəyi anlatmağa çalışırlar?".

**Paşinyanın Rusiyadan Qərbə üz çevirməsi barədə "Şərq"ə danışan sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirib ki, proseslərin gedişində demək olar, Brüssel görüşü əhəmiyyətini itirir:** "Rusiya noyabrın 26-sı üçün Soçidə üçtərəfli görüş təyin edib. Brüssel görüşü keçirilsə belə, formal xarakter daşıyacaq. Soçi toplantısında ciddi məsələlər - sərhədlərin demarkasiya və delimitasiyası, kommunikasiyaların açılması müzakirə edilə bilər. Fikir ayrılıqları əsasən sərhədlərin müəyyənləşməsi ilə əlaqədar olacaq. Ermənilər qeyri-konstruktiv tələblər irəli sürür, mövcud olmayan anklavlar haqqında danışırlar.

Zəngəzur şosse yolunu çəkmək, gömrük xətti yaratmaq istəyirlər. Amma gömrük xəttini şosse yolunda tətbiq etmək olar. Necə ki, bu, Qafan yolunda reallaşdırılır. Dəmiryolunda isə gömrük-yoxlama tədbirləri keçirmək mümkünsüzdür. Çünki qatar ərazidən keçib birbaşa Naxçıvana gedəcək. Paşinyan Zəngəzur dəhlizi ətrafında qeyri-dəqiq, ciddi olmayan fikirlər söylədi. Ermənistan tərəddüdlə 9 noyabr görüşünü boykot etdi. Brüssel görüşünün təyin edilməsində əsas təşəbbüskarlardan biri oldu. Bununla da, Putinin qəzəbini qazandı".

Ekspert sonda bildirib ki, Soçi görüşü baş tutmadığı təqdirdə Qərblə Rusiya arasında həlledici sınaqlar başlayacaq. Bu da sülhyaratma prosesinə ciddi əngəl ola bilər.

**Aygün Tahir**

# Türkiyənin 2023-cü il hədəflərini əngəlləyirlər

## Lirənin ucuzlaşması iqtisadi deyil, süni proseslər əsasında həyata keçirilir



*"Məqsəd Ankara hökumətinə təzyiq göstərmək və Türkiyəni yenidən "sözəbaxan uşağa" döndərməkdir"*

**Türkiyədə lirənin sürətli ucuzlaşması davam edir. Bir dollar hazırda 13,07 lirəyə bərabərdir və bunun son olmadığı deyilir. Lirənin ucuzlaşması ilə bağlı Türkiyənin müxtəlif bölgələrində mitinqlər keçirilib. Türkiyədə "erkən seçkilər" yenidən aktuallaşıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə qətiyyətlə erkən seçki keçirilməyəcəyini bildirib. Ərdoğan problemi müzakirə etmək üçün Mərkəzi Bankın sədri Şahap Kavcıoğlu ilə Ankarada görüşüb.**

Görüş türk lirəsinin qısa müddət ərzində kəskin ucuzlaşmasından sonra reallaşıb. Ancaq görüşlə bağlı detallar açıqlanmayıb. Türkiyə Mərkəzi Bankı bildirib ki, valyuta bazarında qeyri-real, iqtisadi əsaslardan uzaq qiymət formalaşması müşahidə olunur: "MB-nin üzən məzənnə rejimində məzənnə səviyyəsi ilə bağlı heç bir öhdəliyi yoxdur. Valyuta məzənnələri tələb və təklif şərtləri ilə sərbəst bazar dinamikası ilə müəyyən edilir. Müəyyən şərtlər daxilində Mərkəzi Bank daimi istiqamətləndirmə məqsədi olmadan yalnız həddindən artıq qiymət artımına müdaxilə edə bilər". Məlumat üçün bildirək ki, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vəliəhd şahzadəsi Məhəmməd ibn-Zahid ən-Nahyan Türkiyəyə səfər edib. İngiltərə mətbuatı Nahyanın Türkiyəyə 100 milyard dollar sərmayə yatıracağını yazıb. Maraqlısı odur ki, nüfuzlu Qərb mediası Türkiyədə ciddi iqtisadi böhrandan bəhs etmirlər. Hətta bir sıra media qurumları qardaş ölkənin iqtisadi inkişafından yazırlar. Məsələn, "The Financial Times" qəzetinin sonuncu sayında "Lirənin çökməsi Türkiyə iqtisadiyyatı üçün nə deməkdir?" adlı məqaləsində vurğulanıb ki, Beynəlxalq Valyuta Fondu da daxil olmaqla bir çox mərkəzlər bu il üçün Türkiyədə Ümumi Daxili Məhsulun 9 faiz artacağını proqnozlaşdırıblar: "Bu isə dünyada ən sürətli inkişaf göstəricilərindən biridir". Siyasi icmalçılar lirənin qısa periodda qəfil dəyər itirməsini Qərb ölkələrinin siyasi-iqtisadi maraqları ilə əlaqələndiriblər. Onların fikrincə, lirənin ucuzlaşması iqtisadi deyil, süni proseslər əsasında həyata keçirilir. Məqsəd Ankara hökumətinə təzyiq göstərmək və Türkiyəni yenidən "sözəbaxan uşağa" döndərməkdir.

**Qardaş ölkədə lirə ilə bağlı yaşanan narahatlığı "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, son dövrlər iqtisadi baxımdan Türkiyədə vəziyyətin narahatedici olduğu görünməkdədir. Türk lirəsinin dollar qarşısında süni şəkildə dəyər itirməsi Türkiyə iqtisadiyyatını çətinə salıb:** "Türkiyəyə qarşı belə çirkin oyunların qurulması təsadüfi olmamaqla yanaşı, həm də gözlənilən idi. Xatırladaq ki, ABŞ-ın hazırkı prezidenti Cozef Bayden seçkiqabağı təbliğatı zamanı Türkiyə məsələsinə toxunaraq bildirmişdi ki, "biz Ərdoğanın dinc yolla hakimiyyətdən getməsinə çalışacağıq". Baydenin bu cür ifadə səsləndirməsini təsadüfi hesab etmək doğru olmaz. Uzun illərdir Rəcəb Tayyib Ərdoğanın başçılığı altında Türkiyə ABŞ-dan asılı olmayaraq, müstəqil siyasət yürüdür. 2002-ci ildən başlayaraq, Türkiyə daxildə siyasi və iqtisadi mühiti normallaşdırma yolunu tutmağı bacardı. Eyni zamanda PKK terrorundan əziyyət çəkən Türkiyə Ərdoğanın hakimiyyətə gəlişindən sonra terrora qarşı ciddi mübarizə aparmağa başladı. Qısa vaxtda uğurlu nəticələr əldə etməyi bacardı. Türkiyə təkcə ölkə daxilində deyil, eyni zamanda ölkə xaricində də ciddi uğurlar əldə etdi. Şimali İraqda və Suriyada "Zeytun budağı", "Fərat qalxanı" və bir neçə hərbi əməliyyatlar keçirərək əraziləri terrorçulardan təmizlədi. Türkiyə silah sənayesində ciddi uğurlar əldə etməyi də bacardı. İstehsal etdiyi hərbi helikopterlər, tanklar, İHA və SİHA-larla dünyada ciddi səs-küyə səbəb oldu. Bu gün Türkiyə "Bayraktar TB2", "Akıncı", "Ağsunqur" və digər texniki silahlara görə dünyada ilk üçlükdə qərarlaşıb".

**Analitik qeyd edib ki, Türkiyə regional məsələlərdə də ciddi rol oynamaqdadır:** "Hətta demək olar ki, Türkiyənin rolu bəzi vaxtlarda həlledici olur. Türkiyənin 15 dövlətdə hərbi bazası məhz 2002-ci ildə, Ərdoğanın hakimiyyətə gəlişindən sonra baş tutub. Türkiyə Yaxın Şərqdə, istər Şimali Afrikada, Cənubi Qafqazda, Mərkəzi Asiya və Balkanlarda böyük nüfuz qazanıb. Xüsusilə qeyd etmək lazımdır ki, "Ərəb baharı"ndan sonra Suriya və İraqda meydana gələn İŞİD terror qruplaşmasının sıradan çıxarılmasında qardaş ölkənin rolu danılmazdır. Eyni zamanda Qarabağ bölgəsinin erməni işğalından azad edilməsində, Şimali və Cənubi Sudanda vətəndaş müharibəsinin dayandırılmasında, Liviyanın qanuni hökumətinin qorunub saxlanmasında Türkiyənin böyük rolu oldu. Türkiyə Ukrayna ilə ciddi əlaqələrə sahibdir və tərəflər arasında hərbi sahədə sıx əməkdaşlıq mövcuddur. Rusiya ilə ciddi siyasi, iqtisadi və hərbi əlaqələrə malik olsa da Ukraynanın Krım yarımadasının Rusiya tərəfindən ilhaqını tanımadığını açıq şəkildə dilə gətirir".

**S.Hümbətov qeyd edib ki, Türkiyə bütün təzyiq və təhdidlərə baxmayaraq Aralıq dənizində haqqı olan ərazilərdə neft və qaz çalışmalarını uğurla davam etdirir:** "Bir müddət əvvəl İstanbulda Türkdilli dövlətlərin başçıları bir araya gələrək "Türk Dövlətləri Təşkilatı"nı elan etdilər. Bəhs etdiyimiz bu uğurlara Türkiyə məhz Rəcəb Tayyib Ərdoğanın zamanında çatıb. Əlbəttə, Türkiyənin bu uğurları digər dövlətlər tərəfindən qəbul edilmir və bütün çirkin əməllərə əl atılır. Çoxsaylı təzyiqlərə sinə gəlməyi bacaran Türkiyə, bu çətinliklərin də öhdəsindən gələcək. Türkiyənin 2023-cü il hədəfi var və bu yolda uğurla addımlayır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

İsmayıl Qocayev



# Azərbaycan "Zəfərdən yaşıl düşüncəyə" keçir

## Elman Cəfərli: "Yaşıllaşdırma daha çox sənaye şəhərlərinin ərazisində həyata keçirilməlidir"

**Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Azərbaycan hələ 2003-cü ildə ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə milli proqram qəbul edib.**

Azərbaycan, qlobal iqlim dəyişmələrini bəşəriyyətin üzləşdiyi ən çətin problemlərdən biri hesab edir və bu problemin qarşısının alınmasına yönəldilən birgə səyləri dəstəkləyir. Meşələrin artırılması və yaşıllaşdırma işlərinin aparılması ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda, iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində effektiv bir vasitədir. Bu baxımdan azmeşəli ölkə kimi yaşıllıqların artırılması və mühafizəsi prioritet istiqamətlərimizdən sayılır. Yaşıllaşlaşdırma siyasəti dövlətin həyata keçirdiyi uğurlu işlərdən biridir. Qanunvericiliyə uyğun olaraq Azərbaycanda yaşıllaşdırma işlərilə müvafiq rayon icra hakimiyyətləri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də digər qurumlar məşğul olur. Yaşıllaşdırma şəhərsalma siyasətinin mühüm tərkib hissəsi olaraq, şəhər və şəhərətrafı ərazilərdə ətraf mühitin sağlamlaşdırılmasına xidmət edir. İri həcmli tikintilər, əhali artımı, şəhər infrastrukturunun sürətlə böyüməsi, atmosferə buraxılan zərərli qazlar və digər antropogen amillər mövcud yaşıllıq sahələrinin qorunmasına və yaşıllıqların genişləndirilməsinə kəskin ehtiyac yaradıb. Bu baxımdan son dönəmlər kütləvi olaraq yaşıllaşdırma işinə, ağacəkmə kampaniyalarına start verilib. Paytaxt Bakının və ölkəmizin müxtəlif rayonlarında böyük yaşıllıq zolaqları salınmaqdadır. Artıq işğaldan azad olunmuş rayonlarımızda da ağacəkmə işləri aparılır. Noyabrın 20-də Ağdam şəhərinin işğaldan azad edilməsinin ildönümü münasibətilə rayonun işğaldan azad edilmiş hissəsində Prezidentin Xüsusi Nümayəndəliyinin, Ağdam Rayon İcra Hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib. Ağacəkmə aksiyasında sözügedən dövlət qurumlarının əməkdaşları, Şəhid ailələri, "Bir könüllü" təşkilatı və Ağdam könüllüləri, həmçinin digər həmvətənlərimiz iştirak ediblər. Qeyd edək ki, Ağdamda baş tutan ağacəkmə aksiyası cənab Prezidentimiz İlham Əliyevin bütün ölkə üzrə başlatdığı 44.000 ağacın əkilməsi kampaniyasının davamı olaraq icra edilib. Ağacəkmə aksiyası zamanı Meşə Zolağı adlandırılan ərazidə 1000 ədəd ağacdan 53 ədədi Ağdam rayonu qeydiyyatında olan 53 Vətən müharibəsi Şəhidinin adına əkilib və Şəhidlərimizin adları əbədiləşdirilib. Noyabrın 21-də də Ağdamda şəhərin işğaldan azad olunmasının birinci, Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümü münasibətilə ağacəkmə kampaniyası keçirilib.

Bundan əlavə Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirliklərinin, IDEA İctimai Birliyinin birgə təşkilatçılığı ilə Xocahəsən qəsəbəsində "Yaşıl Marafon" layihəsi çərçivəsində "Zəfərdən yaşıl düşüncəyə" devizi altında ağacəkmə kampaniyası baş tutub. Kampaniyada müvafiq qurumların rəhbər şəxsləri və aidiyyəti struktur bölmə rəhbərləri, ölkəmizdə təhsil alan əcnəbi tələbələr, ali təhsil müəssisələrinin nümayəndələri, "Hökumətlərarası Təqaüd Proqramları (HTP)" məzunları iştirak ediblər. Ekoloji vəziyyətin yaxşılaşdırılması, yaşıllıqların artırılması, eyni zamanda əcnəbi tələbələrin şəbəkələşməsi və ictimai aktivliyinin artırılması, əcnəbilərin Azərbaycanda təhsilinin təşviqi məqsədilə payız ağacəkmə marafonunda 17 ali təhsil müəssisəsindən 48 ölkəni əhatə edən 100-dən çox əcnəbi tələbə iştirak edib. "AzerGold" QSC də Daşkəsən rayonunda yerləşən "Çovdar" mədənində ağacəkmə aksiyası keçirib. Aksiya çərçivəsində təqribən 1 hektar ərazidə yerli şəraitə uyğun, ümumilikdə 2000-ə yaxın ting əkilib, həmçinin xüsusi ayrılmış əraziyə palıd toxumları səpilib. Yeni əkilən ağac tingləri və toxumlar suvarılaraq onlara aqrotexniki qaydada qulluq göstərilib. Ötən gün Milli Məclisdə 2022-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı çıxış edən parlamentin Təbii ehtiyatlar, energetika və ekolgiya komitəsinin sədri, millət vəkili Sadiq Qurbanov deyib ki, büdcədə park və xiyabanlarda abadlaşdırma, yaşıllaşdırma işlərinin görülməsi üçün 9,2 milyon manat vəsait nəzərdə tutulub: "İşğaldan azad olunmuş ərazilərdə ekoloji genosidin həyata keçirildiyini, flora və faunaya böyük zərərlər vurulduğunu nəzərə alaraq, ekoloji tarazlığın təmin olunması məqsədi ilə bu sahəyə daha çox diqqət ayrılması məqsədə müvafiq olar". Deputat vurğulayıb ki, artıq "Təmiz şəhər" konsepsiyasından "Təmiz ölkə" konsepsiyasına keçmək vaxtıdır".

**"Yaşıl Dünya" Ekoloji Maarifləndirmə" İctimai Birliyinin sədri Elman Cəfərli "Şərq"ə bildirib ki, ölkə üzrə yaşıllaşdırma işlərinin aparılması çox yaxşı haldır. Birlik rəhbərinin sözlərinə görə, son illər bu istiqamətdə istər dövlət qurumları, istərsə də imkanlı QHT-lər tərəfindən böyük işlər görülüb:** "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyi olaraq könüllü təbiətsevərlərin iştirakı ilə Bakının Məhəmməd Hadi, Nəsrəddin Tusi küçələrində yaşıllaşdırma işləri həyata keçirmişik. Ölkə üzrə ağaclıq və meşə sahələrinin genişləndirilməsi çox yaxşıdır. Amma mənim fikrimcə, yaşıllaşdırma daha çox sənaye şəhərlərinin ərazisində həyata keçirilməlidir. Bakı, Gəncə, Sumqayıt şəhərlərində yeni yaşıllıq sahələri salınmalıdır. Son vaxtlar xüsusən Bakı və Sumqayıt şəhərlərində yaşıllıq sahələri məhv edilib, yerində göydələnlər, ticarət obyektləri tikilib. Yaşıllığın məhv edilməsi ekoloji tarazlığı pozub, bəzi yerlərdə torpaq sürüşmələrinin aktivləşməsinə səbəb olub".

**E.Cəfərli vurğulayıb ki, yaşıllaşdırma işi mövcud ağaclıqların qorunmasına paralel aparılmalıdır:** "Bir tərəfdə yeni yaşıllaşdırma salınır, başqa tərəfdə çoxillik ağaclar məhv edilir. Bakının Nizami, Xətai rayonları ərazisində son 15 ildə nə qədər çoxillik ağac kəsilib. "Neftçilər", "Həzi Aslanov", "Əhmədli" metrosunun həndəvərinə gedin, mənzərə adamın ürəyini ağrıdır. İlk növbədə Bakı və Sumqayıt şəhərlərində göydələnlərin tikintisi qadağan olunmalıdır. Yaşıllıqları məhv edənlərə qarşı sərt cəzalar tətbiq olunmalıdır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Taktika dəyişməyib

## ABŞ-Rusiya qarşıdurmasının yeni mərhələsi başlayıb



*"Qısa müddət sonra savaş faktorları mütləq hansısa başqa bölgədə müşahidə edilməyə başlayacaq"*

**Rusiyanın Müdafiə naziri Sergey Şoyqu çinli həmkarı Vey Fenqe ilə görüşdə Amerikanın yaratdığı təhlükələrdən danışıb. Nazir bildirib ki, Amerikanın hərbi hava qüvvələrinin strateji bombardmançı aviasiyası Rusiyanın şərqində, dövlət sərhədinin bilavasitə yaxınlığında əhəmiyyətli dərəcədə fəallaşıb. Artıq pilotlar raket zərbələri endirmə taktikasını tətbiq edirlər: "Rusiyanın şərq sərhədləri yaxınlığında uçuşların sayında əhəmiyyətli artımı qeyd edirik.**

Təkcə 2020-ci ildə ABŞ Hərbi Hava Qüvvələrinin strateji aviasiyası Oxot dənizi üzərində 22 uçuş həyata keçirib, halbuki, 2019-cu ildə bu uçuşların sayı 3 olub. Bütün hallarda hava hücumundan müdafiəmiz Amerikanın strateji bombardmançılarının vaxtında aşkar edilməsi, davamlı monitorinqin qurulması və insidentlərin qarşısının alınması üçün tədbirlər həyata keçirir". Xatırladaq ki, ötən gün Rusiya Baş Qərargahının rəisi, general Valeri Gerasimov və ABŞ Qərargah Rəisləri Birləşmiş Komitəsinin rəhbəri, general Mark Mili arasında telefon söhbəti olub. Telefon danışığı Rusiyanın Ukrayna sərhədləri yaxınlığında hərəkətlərindən Qərbin narahatlığının ən yüksək həddə çatdığı bir vaxtda baş verib. Kiyev və Qərb ölkələri Rusiyanın Ukrayna sərhədləri yaxınlığında qoşun və hərbi texnika cəmləşdirməsi ilə bağlı həyəcan təbili çalıblar. Ukrayana hərbi kəşfiyyatının noyabrın 21-də verdiyi məlumata görə, sərhəd yaxınlığında Rusiyanın cəmləşdirdiyi hərbçilərin sayı 92 minə çatıb. Kreml isə bu barədə iddiaları "əsassız" adlandırıb. Qeyd edək ki, bir neçə gün əvvəl Prezident V.Putin ABŞ və Rusiyanın mövqelərinin bəzən köklü şəkildə haçalandığını desə də, Rusiya dialoqa hazır olduğunu söyləmişdi: "Bəzi ikitərəfli və çoxtərəfli məsələlərdə bizim maraqlar, qiymətləndirmələr, mövqelər bəzən həqiqətən də köklü şəkildə haçalanır, bu, hamıya yaxşı məlumdur. Lakin mən yenə də qeyd etmək istəyirəm ki, kontaktlara, fikir mübadiləsinə və konstruktiv dialoqa hazırıq". Putin ABŞ Prezidenti Co Baydenlə görüşün dialoq üçün imkanlar açdığını da bildirib: "Baydenlə Cenevrədə keçirilən sammit ABŞ və Rusiya arasında dialoq və münasibətlərin düzəlməsi üçün imkanlar açıb və artıq bəzi işlər görülür. Ən vacibi hər iki tərəfin əldə olunmuş razılaşmanı ardıcıl şəkildə inkişaf etdirməsidir".

**ABŞ-Rusiya gərginliyi ilə bağlı "Şərq"ə danışan politoloq Elçin Xalidbəyli deyib ki, tərəflərin qarşıdurması yeni dünya düzənində daha üstün mövqelər qazanmaq uğrunda mübarizənin tərkib hissəsidir. Analitikə görə, bu, yeni başlamış rəqabət və ya mübarizə prosesi deyil:** "ABŞ və Rusiya arasında həmişə beynəlxalq siyasət məkanında qarşıdurma və ziddiyyətlər mövcud olub. Ancaq hazırda baş verənlər qarşıdurmanın yeni mərhələsidir. Belə ki, son illərdə Amerika beynəlxalq mövqelərini itirmişdi, Ağ Evin dünya jandarmı imici ciddi şəkildə zərər görmüşdü. Ona görə də Prezident Co Bayden hakimiyyətə gəlişi ərəfəsində ölkəsinin beynəlxalq mövqelərini mütləq geri qaytaracağını vəd etmişdi. O hətta bəyan etmişdi ki, ABŞ-ın beynəlxalq siyasət məkanına dönüşünün vaxtı çatıb və dünyada hər kəs buna hazır olmalıdır. Təbii ki, Prezident Co Bayden fəaliyyətə başladığı andan öz vədlərinin yerinə yetirilməsinə cəhd göstərməyə çalışdı. Nəticədə ABŞ-Rusiya qarşıdurmasının yeni mərhələsinin əsasını qoymuş oldu. Bu ilin ilk yarısında Ukrayna üzərindən Kremlə qarşı hərbi-siyasi təzyiqlərin başladılması da məhz Bayden administrasiyasının olduqca qərarlı olduğunu göstərirdi. Ağ Ev hətta NATO-nu da Rusiyanın qarşısına çıxartmağa nail olmuşdu. Ancaq o vaxt Bayden administrasiyasının Rusiyaya qarşı hərbi-siyasi təzyiq kampaniyası iflasa uğradı. ABŞ və NATO Ukrayna ətrafında canlı qüvvə və hərbi texnika cəmləşdirsə də, Rusiya geri çəkilmədi. Əksinə, Kreml Rusiyanın hərbi potensialını Ukrayna sərhədləri ətrafına daşıdı. Amerika və hərbi alyansla silahlı toqquşmadan çəkinmədiyini göstərdi. Nəticədə Rusiya ilə hərbi təmasa cəsarət edilmədi və böyük sürətlə geri çəkildilər. Bununla da ABŞ Rusiya qarşısında tarixi və təmassız hərbi məğlubiyyət yaşadı. Siyasi-psixoloji üstünlük Rusiyanın tərəfinə keçmiş oldu".

**E.Xalidbəyli vurğulayıb ki, Amerika acı siyasi-psixoloji məğlubiyyətlə barışmaq istəmir:** "Ağ Ev Rusiyanı ABŞ və NATO qüvvələr qarşısında aciz duruma salmağın yollarını axtarır. Əslində, Ağ Evin taktikası da dəyişməyib. Bu dəfə də Rusiyanın üzərində eyni coğrafi və hərbi faktorlara dayanaraq, təzyiq dalğası yaratmağa çalışır. Yenə də Ukraynanı qabağa verməyə, Rusiya ilə silahlı toqquşmaya sövq etməyə çalışırlar. Ancaq rəsmi Kiyev artıq ABŞ və NATO-ya əvvəlki kimi güvənmir. Çünki bundan öncə Ukraynanı Rusiya ilə qarşı-qarşıya gətirib, sonra heç nə olmamış kimi "qaçdıqlarını" hələ unutmayıblar. Məsələ ondadır ki, rəsmi Kiyev Ukraynanın Rusiya ilə hərbi münaqişəyə girəcəyi təqdirdə, ABŞ və NATO-nun yenə də qaçmayacağına, onu tək buraxmayacağına tam əmin deyil. Hətta Kiyev vurğulayır ki, Qərb Ukraynaya hərbi texnika yardımı göstərir, ancaq birbaşa, eyni səngərdə dəstək verməyə həvəsli deyil. Böyük ehtimalla Amerika və NATO-nun hərbi qüvvələrinin bu dəfə Qara dəniz hövzəsinə cəmləşdirilməsi də Ukraynanı Rusiya ilə silahlı qarşıdurmaya cəsarətləndirmək məqsədi güdür. ABŞ hərbi təyyarələrinin Rusiya sərhədləri ətrafında təhdidkar savaş manevrlər etməsi də Kremlin əsəblərini tarıma çəkmək, Kremli səhvə sövq etmək niyyəti daşıyır".

**Siyasi icmalçıya görə, bu qarşıdurma uzun müddət davam edəcək:** "Ağ Ev hətta Rusiyanın siyasi tərəfdaşlarını da neytrallaşdırmağa, hətta Kremllə qarşıdurmaya çəkməyin yollarını axtarır. Buna misal olaraq, Rusiya ilə yaxın münasibətləri olan Türkiyəni Kremlə qarşı qoymaq cəhdlərini göstərmək olar. Belə ki, Ağ Ev rəsmi Ankaraya Suriyada bəzi hərbi-strateji güzəştlər təklif edir. Bunun əvəzindəsə, Türkiyənin Qara dəniz hövzəsində Rusiyaya qarşı hərbi-siyasi kampaniyada ABŞ və NATO-nun yanında yer almasını istəyir. Rəsmi Ankara isə ABŞ-ın Rusiya əleyhinə planlarında yer almağa qətiyyən həvəsli deyil. Bütün bunlar onu göstərir ki, ABŞ-Rusiya qarşıdurması yaxın gələcəkdə sona çatmayacaq. Ola bilsin ki, hansısa bölgədə qarşıdurma faktorları arxa plana keçiriləcək. Ancaq qısa müddət sonra savaş faktorları mütləq hansısa başqa bölgədə müşahidə edilməyə başlayacaq. Bu qarşıdurma yalnız o halda aradan qalxa bilər ki, tərəflərdən biri - yəni ya Rusiya, ya da ABŞ tam məğlub duruma düşsün, digərinin beynəlxalq iradəsini qəbul etmiş olsun".

**İsmayıl Qocayev**



# Azərbaycan bölgədə sabitləşdirici qüvvə kimi çıxış edir

## Avropa İttifaqının yeni Cənubi Qafqaz konsepsiyasında aparıcı strateji xətt Azərbaycan ilə əməkdaşlığın dərinləşdirilməsi olacaq

**"Postkonflikt mərhələsində Azərbaycanın liderliyi, fəal iştirakı və strateji təşəbbüsləri təkcə Cənubi Qafqazda deyil, Asiyadan Avropaya doğru geniş coğrafiyada yeni işbirliyi xəttinin - geoiqtisadi tranzit oxunun formalaşmasında həlledici faktor kimi çıxış edir. Söhbət Zəngəzur dəhlizinin reallaşdırılmasından, bölgədə kommunikasiya xətlərinin bərpasından gedir".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, bu layihənin həyata keçirilməsi Cənubi Qafqazın kommunikasiya və inteqrasiya mərkəzinə çevrilməsini şərtləndirəcək:* "Xüsusilə də, Azərbaycan-Türkiyə geostrateji işbirliyi nəticəsində meydana çıxan gerçəkliklər fonunda beynəlxalq münasibətlərdə çoxqütblü idarəetmə sisteminə transformasiya - keçid labüddür. Bu isə uzun müddətdir ki, təkqütblü dünya nizamına alternativ sistemin formalaşması təşəbbüsü ilə çıxış edən Avropa İttifaqı üçün real şans - mühüm imkandır. Məhz burada bəhs olunan regional təşkilatın mövqeyi, xüsusilə də Çin və Rusiya kimi güc mərkəzləri ilə üst-üstə düşür. Digər tərəfdən, Zəngəzur dəhlizinin reallaşmasından, kommunikasiya xətlərinin bərpasından sonra formalaşacaq yeni tranzit imkanlar Aİ-nin də iqtisadi, ticari maraqlarına cavab verəcək. Bu da öz növbəsində qurumun regiona marağının artmasını şərtləndirən mühüm amillərdən biridir".

**N.Qələndərli qeyd edib ki, şübhəsiz, Aİ-nin yeni Cənubi Qafqaz konsepsiyasında aparıcı strateji xətt Azərbaycan ilə əməkdaşlığın dərinləşdirilməsi olacaq:** "Bunu şərtləndirən bir sıra zəruri amillərdən bəhs etdik. Əlavə olaraq qeyd edə bilərik ki, Azərbaycan regionun lider dövləti - aparıcı aktoru olaraq yeni mərhələdə bölgədə müxtəlif qütblərin həm geosiyasi, həm də geoiqtisadi maraqlarını uzlaşdıran sabitləşdirici qüvvə kimi çıxış edəcək. Digər tərəfdən, dünyada böyük etimada malik olan Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artması Aİ tərəfindən xüsusilə nəzərə alınır. Ölkəmiz 15 ildir ki, Avropa bazarında etibarlı neft təchizatçısıdır və prosesdə hər hansı fasilə olmayıb. Azərbaycanla əməkdaşlığın üstünlüyünü şərtləndirən digər amillər ondan ibarətdir ki, respublikamızın təbii qazının qiyməti digər mənbələrdən daxil olan qazdan ucuzdur. Eyni zamanda, Cənub Qaz Dəhlizi alternativ mənbə kimi çox mühüm əhəmiyyətə malikdir. Bu isə həm enerji təhlükəsizliyi, həm də regional iqtisadi sabitlik və inkişaf məsələsidir. Bütövlükdə, yeni geostrateji reallıqların müəllifi olan Azərbaycanla qarşılıqlı-faydalı və bərabərhüquqlu əməkdaşlığın dərinləşdirilməsi Aİ-yə mühüm iqtisadi mənfəət və siyasi dividend vəd edir. Ona görə də qarşıdakı dövrdə növbəti siyasi-iqtisadi təmasların, regionda intensiv diplomatik trafikin şahidi olacağıq desək, yanılmarıq".

**Aynurə Pənahqızı**

# Təklif yaxşı səslənir, lakin reallaşacağı sual altındadır

## Əlbəttə, yaxşı olar ki, bütün ölkə boyu müəllimlərə, tələbələrə, şagirdlərə ictimai nəqliyyatdan güzəştlər tətbiq edilsin




Aynurə Pənahqızı

**"Bu gün sevindirici haldır ki, orta və ali təhsil müəssisələrimizdə tədris üçün gərəkli olan bütün müasir texnologiyalar əlçatandır. Amma unutmamalıyıq ki, elm və texnologiya sürətlə dəyişir və inkişaf edir. Bu dəyişikliklərə uyğunlaşmaq və yeni avadanlıqların davamlı təczihatı üçün Təhsil Nazirliyinə xüsusi vəsait ayrılmalıdır". Bunu Milli Məclisin deputatı Naqif Həmzəyev parlamentin dünən keçirilən iclasında büdcə müzakirələri zamanı deyib.**

O bildirib ki, artıq ictimai nəqliyyat vasitələrinin əksəriyyətində ödəniş nağdsız-kart sisteminə keçirilir: "Təklif edirəm ki, bu fürsətdən istifadə edərək ictimai nəqliyyatdan istifadə zamanı tələbə və şagirdlərə, müəllimlərə müəyyən güzəştlər edilsin. Hətta şəhid ailələri və qazilər üçün də ictimai nəqliyyatdan istifadə zamanı güzəştlər tətbiq edilməsi sevindirici hal olar. Bu təcrübə bir çox ölkələrdə uğurla həyata keçirilir".

**Deputatın təklifini dəyərləndirən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında deyib ki, bütün dünya ölkələrində xarici və yerli tələbələri cəlb etmək üçün kampaniyalar, güzəştlər tətbiq edilir. Ekspert qeyd edib ki, təəssüf ki, Azərbaycanda təhsil alan tələbələrə hansısa güzəştlər tətbiq edilmir:** "Halbuki, dünya təcrübəsində tələbəyə nəqliyyat vasitələrindən istifadə etməkdən başlamış, geyim, restoranlar, kitab dükanlarında güzəştlər tətbiq edilir. Təəssüf ki, ölkəmizdə müstəqillik dövründən bu yana yalnız xüsusi kateqoriyada olan şəxslərə təhsil haqları ilə bağlı güzəşt olunur. Başqa tələbələrə yönəlmiş tədbirlər həyata keçirilmir. Bir neçə il əvvəl tələbə kartı adı altında bəzi geyim və restoranlarda endirim nəzərdə tutan kartlar paylandı. Lakin bu tələbə kartlarının heç bir xeyri olmadı. Həmin mağazalar kifayət qədər bahalı idi və hətta mağazaların xəbəri yox idi ki, güzəşt edilməlidir. Bu, şəbəkə biznesi adlanan sistemdir. Məsələn, Türkiyədə bu sistem var və bütün tələbələrə "Yaşıl kart" verilir. Hətta qardaş Türkiyədə tələbələrə verilən yaşıl kart vasitəsilə onlar böyük əhəmiyyət kəsb edəcək dərəcədə güzəştlərə sahibdir. Onlar tələbə olduqları müddətdə adi vətəndaşlarla müqayisədə 80-90 faiz endirimlər əldə edirlər. Bu güzəştlərə ictimai nəqliyyatda və s. yerlərdə endirimlər daxildir".

*Təhsil eksperti Azərbaycanda bunun tətbiqinin yaxşı səsləndiyini deyib, lakin onun reallaşacağına inanmır:* "Çünki bu addım dövlət tərəfindən atılmalıdır. Bütün baza dövlət tərəfindən planlaşdırılıb, tənzimlənir. Həmin kartların bu sistemə daxil edilməsi uzun proses olacaq. Təəssüf ki, həyata keçirilən belə tədbirlər regionlarda yerləşən ali məktəb, peşə-ixtisas təhsili məktəblərinə şamil edilmir. Tələbə güzəşti dedikdə orta məktəbi bitirmiş, ondan sonrakı pillədə təhsil alan bütün şəxslərə şamil olunmalıdır. Amma Bakıda universitet tələbələrinə şamil edilməsi belə layihələrin çatışmazlığıdır. Sözsüz ki, belə tədbirlər olsa, çox müsbət addım olar. Tələbələr maddi baxımdan elə də təminatlı deyillər. Bu gün Azərbaycanda 54 ali təhsil müəssisəsində 165 min tələbə təhsil alır. Onların 130 mini isə ödənişli oxuyur. Bu 70 faizdən çox tələbənin illik xərcləri kifayət qədər çoxdur. Ona görə hesab edirəm ki, tələbələri bütünlüklə, Naxçıvan, Qazaxa, Lənkəran və paytaxta qədər bütün ali təhsil müəssisələrini əhatə edəcək layihə işlənməlidir. Bu tələbə kartları yalnız Bakını əhatə edəcəksə, məhdud marşrut xətlərinə, mağazalara aid olacaqsa, heç başlamasınlar. Görüntü xətrinə layihə həyata keçirmək lazım deyil, artıq yetər".

# "Gender bərabərliyi və feminizm fərqli məfhumlardır"

## Lalə Mehralı: "Təəssüf ki, bizim ölkədə bu məsələləri adətən qarışdırırlar"

**Feminizm cinslər arasında bərabərliyi təşviq edən ictimai-siyasi hərəkatdır. Feministlər deyirlər ki, kişilərlə qadınlar bərabər imkanlara, hüquqlara malik olmalı, onlara eyni cür rəftar və hörmət edilməlidir. Feminizm qadınlara verilən ictimai qiymətləndirmədə ədalətsizliyin olmasının qəbul edilməsindən meydana çıxıb.**

O, qadınların sıxışdırılmasının əsaslarını və səviyyələrini təhlil edərək, onların azadlığına nail olmağa çalışır. Feminist hərəkatlar qadınların hüquqları uğrunda mübarizə aparırlar. Bu hüquqlara təhsil almaq, işləmək, səs vermək, dövlət vəzifələri tutmaq, müqavilə bağlamaq, mülkiyyət sahibi olmaq, ədalətli əmək haqqı almaq, nikahda bərabər hüquqlara sahib olmaq və s. daxildir. Onu da qeyd etmək lazımdır ki, müasir feminizm qadınların seçim hüququna əhəmiyyət verir. Müasir feministlər inanırlar ki, istənilən qadının iddialı və ya ənənəvi həyat tərzi sürmək seçimi olmalıdır. Burada əsas məqam, qadının nə seçdiyi deyil, istədiyini seçə bilməsidir. Feminizm hərəkatı əhəmiyyətli dəyişikliklərə nail oldu. Bu hərəkat sayəsində, qadınlar səs verə, mühüm siyasi postlar tuta, ənənəvi olaraq kişilərin gördüyü işləri görə bilirlər. Lakin təəssüf ki, mübarizə hələ bitməyib. Dünyanın bir çox yerində qadınlar hələ də konservativ patriarxal cəmiyyətin qurbanlarıdır və nə qədər ki, bu status-kvo dəyişməyib, feminizm hərəkatı da aktual olacaq. Feminizm hər zaman bütün dünyada çətinliklərlə, əngəllərlə üzləşib. Feminist hərəkatlarının ən böyük prob-



lemləri siyasi qeyri-bərabərliklə bağlı olub: bir çox ölkələrdə qadınlar XX əsrin ortalarına qədər səsvermə hüququndan məhrum edilmişdilər. Birincisi, səsvermə hüququ olmadan onların səslərini dinləyən dövlət xadimlərini seçmək çətin idi. İkincisi, qadınlara həmişə kişilərdən daha az məvacib ödənilirdi və bu fakt indi də dəyişməz qalır. İqtisadi çatışmazlıqlar ucbatından qadınlar öz mübarizələrində qalib gələ bilməzdilər və müttəfiqlərə ehtiyacları var idi. Üçüncü problem isə qadınlara qarşı zorakılıqdır. Cinsi zorakılıq həmişə qadını susdurmanın bir üsulu kimi istifadə olunub.

**Mövzu ilə bağlı sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında bildirib ki, bəzən bizim kimi cəmiyyətlərdə feminizm ilə gender bərabərliyi eyni ad altında istifadə edilir. Sosioloq qeyd edib ki, ancaq aslında hər ikisi tamamilə fərqli məfhumlardır:** "Çox təəssüf ki, bizim ölkədə bu ədətən qarışdırılır. Feminizm qadınlara səs, seçim, söz azadlığının verilməsi uğrunda başlanmış bir hərəkatdır".

**Sosioloqun sözlərinə görə, bizim ölkədə bu tip problemlər yaşanmır və ona görə də bununla bağlı keçirilən aksiyalar da gərəksizdir:** "Bildiyimiz kimi, Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə olub. Bu halda ölkəmizdə hansı qadın hüquqlarının pozulmasından, qadınların səsinin boğulmasından söhbət gedə bilər?! Bu baxımdan hesab edirəm ki, bizim kimi cəmiyyətlərdə bu tip addımlar tamamilə gərəksiz və şou xətirinə edilən addımlardır. Bir neçə ay öncə özlərini feminist kimi qələmə verən bir qrup qadının feminizm adı altında Bakıda həyata keçirdikləri yürüşü yəqin ki, görmüsünüz. O qadınların başları üzərinə qaldırdıqları plakatlarda yazılmış yazılar, ifadələr utancverici idi. Biabırçılıqla nəticələnən və heç bir ədəb-ərkan qaydalarına sığmayan bir aksiya idi. Elə feminizmin bizim insanlara yanlış tanıdılmasında birbaşa özlərini "feminist" adlandıran qadınların rolu böyükdür. Onlar feminizmi əxlaqsızlıq dəyərləri altında tanıtdılar və bununla da yalnız öz fəaliyyətlərinə ləkə saldılar".

Nigar Sadıqova

# Əvvəlcə ciddi araşdırma aparılmalıdır

## Lazımsız, əhəmiyyətsiz tikililərə vəsait xərcləməyə dəyməz



**İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, yarımçıq qalmış tikililərlə bağlı problemlər var və kifayət qədər keçid layihələri mövcuddur. Nazir müavini qeyd edib ki, yarımçıq tikililərin monitorinqi aparılacaq, bununla əlaqədar geniş tərkibdə İşçi Qrup yaradılıb.**

Nazir müavini bildirib ki, dövlət büdcəsindən investisiya layihələrinə ayrılan vəsaitlər hər il azalmaqla təsdiq edilir: "Dövlət investisiya proqramlarının tərtibi yenidən işlənəcək. Bu qrup tərəfindən bütün yarımçıq qalmış tikililərin monitorinqi aparılacaq və müvafiq təkliflər hazırlanacaq. Bu tikililərin sadəcə dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulmur. Özəlləşdirmə və s. kimi təkliflər də nəzərdə tutulur".

*Yarımçıq tikililərin monitorinqi və özəlləşdirməyə çıxarılması özəl sektora nə vəd edir?*

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirdi ki, əvvəlcə tikililərin niyə yarımçıq qaldığı müəyyənləşməlidir:**

- Nazir müavini bildirir ki, problemin həlli üçün İşçi Qrup yaradılıb. Yəqin İşçi Qrup əvvəlcə müəyyənləşdirməlidir ki, harda, nə qədər yarımçıq tikili var və bu tikintilər niyə yarımçıq qalıb? Bunlar dövlət investisiya layihələrinə daxil olan tikililərdir, hansı tikililər lazımsız, gəlir gətirməyən, artıq əhəmiyyətini itirmiş layihələrdir, hansı tikililər də özəl sektora aiddir və onlar niyə yarımçıq qalıb. Sahibkarlar vəsait qoyduqları tikililərdən niyə imtina edib? Yəni burada 2 variant ola bilər: ya bu tikililər dövlətin balansındadır, ya da özəl sektora aiddir. Mənzil-tikinti kontorları, "MMC"lər zatən özəldir. Yox əgər söhbət hansısa investisiya layihələri çərçivəsində başlanan, lakin başa çatdırılmayan tikililərdən gedirsə, bunun səbəbi öyrənilməlidir. Bu tikililər bizə - dövlətə lazımdır, ya yox. Onun tikintisi dövlətə hansısa xeyir verəcəkmi? Yarımçıq tikililərin özəlləşdirməyə çıxarılmasından özəl sektor nə qazanacaq? Özəl sektor tikintiyə icazəni alıb onsuz da istədiyi kimi tikir. Sahibkarlara nəsə təklif olunanda ilk növbədə onun gəlirlilik əmsalına baxırlar. Onlara nə təklif oluna bilər? Deyək ki, mehmanxana, otel, şadlıq sarayı, restoran üçün bina, ya da daha çox ticarət mərkəzi. Amma sahibkar da baxır ki, alacağı obyekt ona sərf edirmi? Tikilinin olduğu ərazidə əhali sıxlığı varmı, gediş-gəlişin intensiv olduğu ərazidirmi? İşlək yollardırmı və sairə. Belə başa düşürəm ki, dövlət yarımçıq qalmış tikililərin qismən dövlət, qismən də özəl sektor hesabına başa çatdırılmasını istəyir. Ancaq ilk növbədə bu tikililərin lazımlı olub-olmadığı müəyyənləşməlidir. Lazımsız, əhəmiyyətsiz olacaq tikililərə vəsait xərcləmək lazım deyil.

***İqtisadçı: "Belə başa düşürəm ki, dövlət yarımçıq qalmış tikililərin qismən dövlət, qismən də özəl sektor hesabına başa çatdırılmasını istəyir"***

Məlahət Rzayeva



# Kəndlinin, sahibkarın o qədər dərdləri var ki...

## Vergi Məcəlləsinə edilən dəyişiklik kənd təsərrüfatı məhsullarının ucuzlaşmasına səbəb olmayacaq

**Azərbaycanda kənd təsərrüfatı ilə bağlı Vergi Məcəlləsinə edilən dəyişiklik ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsi üçün zəmin yaradacaq.**

Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi üzrə Vergi Məcəlləsinə təklif edilmiş növbəti dəyişikliklərdən biri kənd təsərrüfatı məhsullarının maya dəyərinə təsir edən xərc elementlərinin azaldılmasına və beləliklə də daxili bazarda qiymətlərin enməsi üçün iqtisadi zəminin yaradılmasına yönəlmiş dəyişikliklərdir. Layihəyə əsasən, 2022-ci ilin 1 yanvar tarixindən 3 il müddətində kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlərin ƏDV-dən azad edilməsi təklif olunur.

Bu istiqamətdə birinci dəyişiklik - kənd təsərrüfatı məhsullarının bütün satış zənciri üzrə ƏDV-nin həmin məhsulların tam dəyərindən deyil, tətbiq edilən ticarət əlavəsindən hesablanmasıdır. Mövcud vəziyyətdə istehsalçıdan alınan kənd təsərrüfatı malları ƏDV-dən azad olunan əməliyyatla alındığı üçün həmin malların sonrakı satışı 18 faiz dərəcə ilə ƏDV-yə cəlb edilirdi. Təklif olunan dəyişiklik nəticəsində ƏDV bu malların ticarət əlavəsindən hesablanacağı üçün ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsi üçün zəmin yaranacaqdır.

Bu istiqamətdə ikinci dəyişiklik - kənd təsərrüfatı məhsullarının istehsal üzrə ƏDV-li xərc elementlərinin ƏDV-dən azad olunması (kənd təsərrüfatı məhsullarının istehsalçılarına göstərilən aqrotexniki xidmətlərin və onlara kənd təsərrüfatı texnikasının icarəyə (lizinqə) verilməsinin ƏDV-dən azad edilməsi) istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsi ilə nəticələnəcək ki, bu da qiymətlərin azalmasına təsir edəcək.

Dəyişikliklər Milli Məclisin dünən keçirilən iclasında səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, kənd təsərrüfatı məhsullarının ucuzlaşmasına vergi güzəştləri az təsir edir. Ekspert bildirib ki, bunun səbəbi son zamanlar vergi orqanlarına güzəştin tətbiq olunması üçün sənədin tələb edilməsidir:** "Yəni kəndlinin məhsulunun vergidən azad olunması üçün bünövrə olmalıdır. Əgər bələdiyyə torpağında əkin əkirsə, onun icarəyə götürübsə, buna görə rüsum ödəməlidir. Düzdür, əvvəllər buna ciddi fikir verilmirdi. Son zamanlar artıq sənədlərin tələb edilməsi kəndlinin onsuz da az məhsul götürməsində bu məsələlərin rəsmiləşdirilməsi əlavə vəsaitlərin ödənilməsinə gətirib çıxarır. Nəticədə vergi güzəştləri məcəllədə göstərilsə də, onların reallaşması üçün prosedurlar ağır olduğundan kəndli bundan yararlana bilmir. Hesab edirəm ki, bununla ciddi şəkildə məhsulların qiymətləri aşağı enməyəcək. Çünki sənədləşmə prosesi ən azından asan olmalıdır. Adi 75 faiz mikrosahibkara güzəşt edilməsi üçün ondan uçotunu dəqiq aparması tələb olunur. Bu da o deməkdir ki, 75 faiz güzəşt yalnız təhlil aparsaq, az sahibkara aid olur".

Aynurə Pənahqızı

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2431



## Nəfəs verdi, sağ qaldı

Bu foto mükafata layiq görülüb

**Mükafata layiq olan bu foto tarixə "Həyat öpüşü" kimi həkk olunub.**

Fotoda 1967-ci ildə J.D.Thompson adlı kommunal işçi yerdən 8 metr hündürlükdə aşağı gərginlikli kabellə təmasdan sonra huşunu itirmiş, həmkarı Randall G. Çempiona ürək masajı etməsi əks olunub.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Çempion dirəyin ucundakı aşağı gərginlikli kabelləri fırçalayan zaman birdən bədənindən 4000 volt gərginlik keçir və qəfildən ürəyi dayanır. Təhlükəsizlik kəməri onun yerə düşməsini əngəlləyir. Aşağıdan bunu görən Tompson dərhal yetişir və Çempiona süni nəfəs verməyə başlayır. Nəbzi hiss edən kimi Tompson təhlükəsizlik kəmərini açır və yerə enirlər. Paramediklər dərhal ürək masajına başlayır və Çempion yavaş-yavaş özünə gəlməyə başlayır. Çempionun xəsarətləri arasında ağır yanıqlar və ayağının dabanında elektrik cərəyanının çıxdığı dəlik olur. Buna baxmayaraq, o, bu hadisədən sonra daha 35 il yaşayır və 2002-ci ildə 64 yaşında vəfat edir. Tompson isə hələ də sağdır.

Günəş Mərd



# "La Nina" başlayır

## Dəhşətli soyuqlar gəlir



**Avstraliya Meteoroloji Bürosu "La Nina" - soyuq hava kütləsi axınının başladığını elan edib. Bu barədə "CNN Türk" DHA-ya istinadən xəbər verir. Məlumatda bildirilir ki, Avstraliya Meteoroloji Bürosu bu gündən (23 noyabr 2021-ci il) etibarən Sakit okeanda əmələ gələn "El Nino" hava axınının soyuq fazası olan "La Nina"başlayır.**

"La Nina" planetin cənub yarımkürəsində 2022-ci ilin payızına qədər təsirini saxlayacaq, Avstraliyada şiddətli yağışlara, sel və fırtınalara səbəb olacaq. Avstraliyada ötən il yüz ildən bir gerçəkləşən şiddətli yağışlarla yadda qaldı. AMB bu dəfəki "La Nina"nın daha qısa müddətli və daha zəif olacağını proqnozlaşdırır.

"La Nina" 3 fazası olduğu bilinən "El Nino" hava axınının soyuq fazasıdır. "El Nino" isə isti fazadır. "La Nina" Sakit okeandakı ılıq səth sularının Güney Amerikadan İndoneziyaya axını səbəbindən soyuq suların dəniz səthinə çıxması zamanı meydana gəlir. Yaz mövsümündə Avstraliyadamı istilər düşəndə, "La Nina" Quzey Amerika və Kanada da fırtına riskini artırır. Amma gözlənilən soyuq hava axını təkcə Avstraliyadamı özünü göstərəcək? Daxil olan məlumatlara baxıldığında da heç də belə görünmür. Planetin şimal yarımkürəsində yerləşən Qardaş Türkiyədə meteoroloji artıq həyəcan siqnalı verib. Türkiyənin Meteoroloji 2-ci Bölgə Müdürlüyü və Erkən Xəbərdarlıq Mərkəzi noyabrın 24-ü səhər saatlarından etibarən Quzey Ege dənizində fırtına xəbərdarlığı edib. Həmçinin şiddətli yağış və külək gözlənilir. Bu səbəbdən İzmir körfəzində gəmiçilərə də xəbərdarlıq edilib.

Ölkəmizdə də iqlim soyumağa başlayır. Noyabrın 24-ü Abşeron yarımadasında küləyin sürətinin artacağı proqnozlaşdırılır, bəzi bölgələrdə intensiv yağışlar, dağlıq ərazilərdə isə qar yağacağı gözlənilir. "La Nina" deyəsən, biz tərəflərə də gəlib çıxacaq.

Məlahət Rzayeva



## 8 il 10 ay həbsdə yatacaq

Xanımına atəş açan kişiyə hökm oxundu



**Nurtaç Cananla bağlı baş tutan məhkəmə prosesində qərar çıxarılıb.**

"Şərq" "Haber-Global"a istinadən xəbər verir ki, İstanbul Zeytinburnuda Raqıp Canan həyat yoldaşı Nurtaç Cananı silahla vuraraq yaralayıb.

4 iyun 2020-ci ildə boşanmaq istədiyi həyat yoldaşı Raqıp Canan Nurtaç Canana silahla 5 dəfə atəş açıb. Nurtaç Canan öz qanı ilə yerə "Annem, babam, hakkınızı helal edin. Beni Raqıp vurdu, kurtuldum" qeydini yazıb. Məhkəmə iş üzrə qərarını açıqlayıb. İttiham olunan R.Cananın 8 il 10 ay müddətinə azadlıqdan məhrum edilməsinə qərar verib. Nurtaç Canan məhkəmə heyətinə "Beni öldürmesimi lazımdı?" deyə, ağlayaraq reaksiya verib.

Sücayət

## Ailələrə ilk uşağa görə 2500 avro veriləcək



**Serbiyada əhalinin azalmasının qarşısını almaq üçün atılacaq addımlar açıqlanıb.**

**Azərtac xəbər verir ki, Serbiya Prezidenti Aleksandr Vuçiç keçirdiyi mətbuat konfransında əhalinin sayının artırılması ilə əlaqədar görüləcək işlərdən danışıb. Prezident qeyd edib ki, ailələrə ilk doğulan uşağa görə 300 min serb dinarı (2500 avro) veriləcək. Bununla bağlı hüququ tənzimlənmə tezliklə həyata keçiriləcək. Tələbə olan gənc ailələr üçün universitetlərdə imtahan müddətləri tətbiq edilməyəcək. Dövlət tərəfindən gənc cütlüklərə bütün lazımi köməklik göstəriləcək, lakin mülkiyyət hüquqları anaya keçəcək.**

## Dünyanın ən yaşlı qadını 124 yaşında vəfat edib



**Filippində dünyanın ən yaşlı insanı Fransiska Susano 124 yaşında vəfat edib.**

**Bu barədə F.Susanonun yaşadığı Kabankalan şəhərinin rəsmi "Facebook" səhifəsində deyilir.**

**Məlumata əsasən, F.Susano noyabrın 22-si axşam saatlarında vəfat edib: "Ürəyimizdə kədərlə bizim sevimli Fransiska Susanonun vəfatı barədə xəbər aldıq. O, həmişə bizim ilhamımız və qürurumuz olaraq qalacaq".**

**Şəhər hakimiyyətinin sözlərinə görə, Fransiska Susanonun dünyanın ən yaşlı insanı statusu Ginnesin Rekordlar Kitabı tərəfindən rəsmi olaraq təsdiqlənib.**

# İçindən at tükü də çıxdı

Zəfəran alanda saxtadır, yoxsa əslidir, yoxlamaq lazımdır

**"Bu qədər də olmaz!" dedirdən oyun zəfəranın "başına açılır". Dünyanın ən bahalı ədviyyatı sayılan zəfəran çəkidə yüngül, qiymətdə ağır qızıla bərabərdir.**



Bu səbəbdən də fırıldaqçılar, müştərini aldatmaq yoluyla böyük gəlir əldə etmək istəyən möhtəkirlər satışa saxta zəfəran çıxarırlar. Bu barədə "CNN Türk" xəbər verir. Xəbər saytının yazdığına görə, zəfəran əvəzinə gah qida boyasıyla rənglənmiş qarğıdalı saçağı, gah Hindistan cevizinin iplik təbəqəsini, gah da at tükünü alıcıya təklif edirlər. Təbii ki, alıcı ona əslində nə təklif edildiyindən xəbərsizdi. Türkiyənin Qida Mühəndisləri Odası Antalya Şöbəsi başqanı Ali Manavoğlu bildirib ki, saxta zəfəranı əslindən ayırmaq ilk baxışda çətindir. Alıcılar nəzərə alsın ki, əsl zəfəranın rəngi daha tünd qırmızı olur və ən əsası əsl zəfəranın rəngi əlin dərisinə çıxmaz. Zəfəran alanda ovcunuzda saxlayın, barmaqlarınızla zəfəranı sıxaçaqlarınız ovuşdurun. Süni və saxtadırsa, rəng əlinizə çıxacaq. Əsl zəfəranınsa rəngi asanlıqla çıxmaz. A.Manavoğlu qeyd edir ki, zəfəran bahalı olduğu qədər becərilməsi də böyük zəhmət tələb edir. 1 kiloqram zəfəran əldə etmək üçün təxminən 150 min çiçək əllə toplanır. Zəfəranın qramı Türkiyədə 200 TL-yə satılır. Azərbaycanda xalis zəfəran neçəyədir, dəqiq məlumat yoxdur. Kiloqramı 300-1000 manat arasında dəyişir. Keyfiyyətə görə. Amma zəfəran alanda saxtadır, yoxsa əslidir, əvvəlcə yoxlamaq gərəkdir.

Məlahət

## Böyük Britaniyanın tam elektriklə işləyən təyyarəsi dünya rekordu qırıb



**Böyük Britaniyanın tam elektriklə işləyən təyyarəsi "Spirit of Innovation" dünya rekordu qırıb.**

Azərtac bildirir ki, avtomobil və təyyarə mühərrikləri istehsalçısı "Rolls-Royce"un , tam elektriklə işləyən təyyarəsi "Spirit of Innovation" saatda 623 kilometr sürətə çataraq dünya rekordunu yeniləyib.

"Rolls-Royce" şirkətinin baş direktoru Varren İst bildirib ki, təyyarə enerji topladıqdan sonra 30 dəqiqədən çox uça bilir.

Saatda 623 kilometr sürətə çatan təyyarə dünya rekordunun yeni sahibi olub. Sınaq uçuşu zamanı təyyarəni "Rolls-Royce"un uçuş əməliyyatları üzrə direktoru Fil Odell idarə edib. Təyyarə 202 saniyəyə 3 min metr hündürlüyə qalxaraq daha bir rekord qırıb. Məlumat təsdiq üçün dünya aviasiya rekordlarını yoxlayan Beynəlxalq Aviasiya Federasiyasına (World Air Sports Federation) göndərilib. Sınaq uçuşu Böyük Britaniyanın Müdafiə Nazirliyinin "Boscombe Down" eksperimental təyyarə sınaq poliqonunda baş tutub.

*Xatırladaq ki, 2017-ci ilin aprelində Almaniyada yerləşən "Siemens" firmasının "Extra 330LE" elektrikli təyyarəsi saatda 337,5 kilometr sürətə çataraq rekord qırmışdı.*

## Təpkilərin, mübarizənin xeyri olmadı

İran 17 yaşında suç işlətmiş Armanı edam etdi

**İran vətəndaşı, 25 yaşlı Arman Avduləli barəsində 17 yaşı olarkən çıxarılmış edam hökmü dünən səhər saatlarında icra edilib. İran hökuməti beynəlxalq təşkilatların təzyiqlərinə baxmayaraq gəncin edam hökmünü ləğv etməyib.**

"Şərq" "İndependent Türkcə"yə istinadən xəbər verir ki, Arman Abduləli bacısını öldürməkdə suçlu bilinirdi. A.Abduləli şübhəli şəxs qismində yaxalanıb istintaqa cəlb edildiyində cinayəti etiraf edibmiş, lakin sonra etirafı təzyiq altında verdiyini söyləyərək günahsız olduğunu bildiribmiş. A.Abduləli barəsində məhkəmə edam hökmü



çıxarsa da, qərarın icrası 5 dəfə təxirə salınıb. Məhkəmə istintaqı zamanı A.Abduləlinin 17 yaşı olub. O, 2014-cü ildə itkin düşmüş bacısı Gazalə Şükürü öldürməkdə təqsirləndirilib. ABŞ-ın dəstəklədiyi Müstəqil Avropa Radiosu itkin düşmüş qızın cəsədinin heç bir zaman tapılmadığını iddia edərək 17 yaşlı A.Abduləlinin günahsız olduğunu açıqlayıb. Norveçdə yerləşən İran İnsan Haqları Evi də A.Abduləlinin həbs olunduğu zaman cinayəti etiraf etdiyini, lakin daha sonra etirafını basqı altında verdiyini bildirib. Beynəlxalq Əfv Təşkilatı da A.Abduləli barəsində çıxarılmış hökmü ədalətsiz adlandırıb. Gəncin vəkili Babək Pakniya isə məhkəmə qərarında bir çox əskiklik olduğunu deyib. İran İstintaq orqanı isə A.Abduləlinin məhz ailəsinin edam hökmündə israrlı olduğunu və qisas tələb etdiyini açıqlayıb. Beynəlxalq Əvf Təşkilatı ötən il İranda ən azı 246 nəfərin edam edildiyini, son 10 ildə 18 yaşından kiçik 64 nəfər barəsində edam hökmü çıxarıldığını və İranın edam hökmündə Çindən sonra ikinci ölkə olduğunu bildirib.

Məlahət

## Barışmalarını Amsterdamda qeyd edirlər

Sevgililər 1 ay orada istirahət edəcəklər



**Türkiyəli aktyor Aras Bulut İynemli ilə aktrisa sevgilisi Bige Önal 6 illik münasibətlərini səssiz-sədasız sonlandırdıqdan bir müddət sonra barışıblar.**

Axşam.az xəbər verir ki, cütlük bu münasibətlə Amsterdama yollanıb. Sevgililər 1 ay orada istirahət edəcəklər.

*Qeyd edək ki, Aras Bulut İynemli sonuncu dəfə "Çukur", Bige Önal isə "Yeşilcam" serialında rol alıb.*